

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 29 (21.181)

12 fevral 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Əlcəzair Xalq Demokratik Respublikasının Energetika naziri, Prezidentin xüsusi elçisi Yosef Yusfini qəbul edib.

Yosef Yusfi Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Əbdüləziz Buteflikanın məktubunu dövlətimizin başçısına təqdim etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə edildi, energetika sahəsində əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Fransa Senatının üzvü, keçmiş nazir Jan-Mari Bokelin başçılıq etdiyi Fransanın Alzas regionunun nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən parlamentlərarası və beynəlxalq əməkdaşlıq sahələrində, eləcə də ölkələrimizin regionları arasında əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında vergi orqanlarında səmərəli fəaliyyətlərinə görə:

Əhmədov Mübariz Osman oğlu
Əliyev Rəşad Asif oğlu
Heydərov Bayram İsmayıl oğlu
Hünbətov Faiq Qadir oğlu
Hüseynov Cahangir Yadulla oğlu
İsmayılov Allahverdi Qafar oğlu
Qazıbəyova Zeynəb Zülfüqar qızı
Məmmədov Malik Ramiz oğlu
Məmmədov Şəmsəddin Camal oğlu
Muradov Müqabil Zahir oğlu
Rəsulova Xədicə Fətəli qızı
Rzayev Səfər Həsən oğlu
Şabanov Əli Hacı oğlu
Vəliyev Arif Əli oğlu– **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 11 fevral 2015-ci il*

## Gömrük orqanlarına xidmətə qəbulla bağlı test imtahanı keçirilib

***Muxtar respublika gömrük orqanlarına xidmətə qəbulla bağlı elan olunmuş müsabiqənin birinci mərhələsi – test imtahanı keçirilib. Fevralın 10-da Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən imtahanda 162 namizəd iştirak edib.***

Qeyd edək ki, müsabiqədə iştirakla bağlı ərizələrin qəbulu və namizədlərin qeydiyyatı elektron qaydada həyata keçirilmişdi. Elektron ərizə ilə müraciət müddətində 298 nəfər qeydiyyatdan keçmişdi. Müraciətlərin dəyərləndirilməsi nəticəsində qeydiyyatdı "Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydaları"na və müəyyən olunmuş tələblərə uyğun gələn 206 namizədə müsabiqədə iştirak üçün dəvət göndərilmişdi.

Test imtahanı gömrük orqanlarına xidmətə qəbul üzrə müsabiqə komissiyasının iştirakı ilə keçirilib. Sual kitabçaları üç variantda hazırlanıb və hər birində 100 sual yer alıb. Sualların cavablandırılması üçün namizədlərə 2 saat vaxt verilib.

Cavab kartlarının yoxlanılması namizədlərin iştirakı ilə aparılıb və nəticələr dərhal açıqlanıb.

Onu da qeyd edək ki, gömrük orqanlarına xidmətə qəbulla əlaqədar keçirilən müsabiqənin növbəti mərhələsinə yalnız test imtahanında müvəffəqiyyət qazanan namizədlər buraxılacaqlar. Müsahibə mərhələsində namizədlərin gömrük orqanlarında işləmək üçün tələb olunan keyfiyyətlərə malik olmaları müəyyən ediləcək.

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**

## Yeddi yaşayış məntəqəsini birləşdirən yol yenidən qurulur



***"Azərbaycanda avtomobil yollarının şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006-2015-ci illər üzrə Dövlət Proqramı"na uyğun olaraq, əvvəlki illərdə olduğu kimi, cari ildə də Naxçıvan Muxtar Respublikasında yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir.***

Hazırda muxtar respublikada ən böyük yol tikintisi Babək rayonu ərazisində aparılır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" 27 avqust 2014-cü il tarixli Sərəncamına uyğun olaraq, adıçəkilən marşrutlar üzrə avtomobil yolunun yenidən qurulması işləri davam etdirilir. Sərəncama əsasən, otuz bir min nəfər sakinin yaşadığı və 7 yaşayış məntəqəsini birləşdirən dairəvi avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 5 milyon manat ayrılıb. Yol tikintisi "Gəmiqaya Yol, Su, Enerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır.

İş icraçısı Ramil Əsədovun dediklərindən:

– Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun uzunluğu 35 kilometrdir. İndiyədək yolun 19 kilometrinə qədər yol yatağı 9 metrədək genişləndirilib, torpaq-bərkitmə işləri aparılıb, 20 yerdə su keçidi qoyulub. Hazırda Qızılvəng-Babək qəsəbə istiqamətində işlərimiz davam etdirilir. Əraziyə 20-dək ağır texnika, 30-a yaxın işçi qüvvəsi cəlb olunub. İşin keyfiyyətlə yerinə yetirilməsinə və lazımi təhlükəsizlik qaydalarına əməl edilməsinə ciddi nəzarət olunur.

Qeyd edək ki, ötən il Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 5 mart tarixli Sərəncamına uyğun olaraq, Babək rayonunda 8 min nəfər sakinin yaşadığı 13 kənd yaşayış məntəqəsini əhatə edən və ümumi uzunluğu 26 kilometr olan Hacıvar-Vayxır-Sirab avtomobil yolu istifadəyə verilmişdi.

## Duz mədənində 300 metrlik ehtiyat çıxışı yaradılıb



Ötən il daxili bazarı yerli məhsullarla təmin edən müəssisələrdən biri olan "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin duz mədənində istehsalata baş verə biləcək qəzaların qarşısının alınması məqsədilə bir sıra tədbirlər həyata keçirilib, 300 metrlik ehtiyat çıxışı yaradılıb. Bu barədə qəzetimizə cəmiyyətin direktoru Anar Əsədullayev məlumat verib.

Məlumatda bildirilir ki, 1050 metr uzunluğunda olan şaxtaya duz hasilatını davam etdirmək üçün dövlət maliyyə dəstəyi ilə 250 metr əlavə edilib. Mailiiyi 75 metr olan şaxtanın daha yüksək səviyyədə və təhlükəsiz işıqlandırılması məqsədilə yeni transformator qoyulub. Bundan başqa, buraya 750 metr yüksək gərginliyə davamlı kabel xətti çəkilib. Şaxtada çökmələrin qarşısını almaq üçün 18 yerdə bərkitmə işləri aparılıb, 2000 metrlik tros kanat yenisi ilə əvəzlənib.

Qeyd edək ki, ötən il müəssisədə 2738,5 ton narın, 6142 ton daşduz istehsal edilib. 2610,7 ton narın, 2336,6 ton daşduz satışa çıxarılıb.

**Xəbərlər şöbəsi**

## Həkim-məsləhət komissiyalarının fəaliyyəti müzakirə edilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə iclas keçirilib. İclasda tibb müəssisələrindəki həkim-məsləhət komissiyalarının fəaliyyətinin və tibbi sosial ekspert komissiyalarına göndərişlərin vəziyyətinin daha da yaxşılaşdırılması ilə əlaqədar məsələ müzakirə edilib. Birgə iclasda pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatının formalaşdırılması ölkədə həyata keçirilən uğurlu sosial siyasətin bəhrəsi kimi dəyərləndirilib. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov tibb müəssisələrində həkim-məsləhət komissiyalarının fəaliyyəti, tibbi sosial ekspert komissiyalarına göndərişlərin vəziyyəti barədə məlumat verib.

Tədbirdə bildirilib ki, hazırda əlilliyin təyin olunması meyarları müvafiq hüquqi baza ilə müəyyənləşdirilir və əlillik vətəndaşın xəstəliyinin ağırlıq dərəcəsindən asılı olaraq təyin edilir. Xəstə müvafiq səhiyyə müəssisələrinin həkim-məsləhət komissiyasına müraciət edir və həmin komissiya tərəfindən xəstəyə "Forma 88" adlanan göndəriş verildiyi halda, o, ərazi tibbi sosial ekspert komissiyasına göndərilir. Burada ətraflı müayinə olunur və ona vəziyyətə uyğun olaraq, əlillik dərəcəsi (I, II, III) müəyyən edilməklə əmək zəmanəti verilir. Əmək zəmanəti verilərkən isə vətəndaşın əmək qabiliyyəti olub-olmamasına dair məlumatlar (işi, ixtisası, peşəsi) nəzərə alınır. Əlilliyin qarşısının alınması və əlillərin reabilitasiyası sahəsində aparılan məqsədyönlü tədbirlər nəticəsində tibbi sosial ekspert komissiyasına göndərişlərin sayı ilbəil azalır. Məsələn, 2014-cü ildə səhiyyə müəssisələri tərəfindən əlillik qrupu almaq üçün ilkin göndərişlərin sayı əvvəlki illə müqayisədə 105 nəfər azalıb.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Qadir Əliyev ötən il rayonlar üzrə tibbi sosial ekspert komissiyasına göndərilən müraciətlər, əlillik qrupu təyin edilən, əlavə müalicəyə qaytarılan, əlillikdən imtina olunan xəstələr haqqında məlumat verib.

Tədbirdə həkim-məsləhət komissiyaları tərəfindən tibbi sosial ekspert komissiyasına göndərişlərin təlimata uyğun həyata keçirilməsi, hiperdiaqnostika, əsaslandırılmamış göndərişlərin yazılmasına yol verilməməsi, imtiyazlı əlillərin nəqliyyat vasitələri ilə təmin olunmasında tam şəffaflığın yaradılması barədə baş həkimlərə xüsusi tapşırıqlar verilib. İki nazirliyin birgə əməkdaşlığının muxtar respublikada əlilliyin təyin olunması vəziyyətinin daha da yaxşılaşdırılmasında mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

12 fevral Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin yarandığı gündür

# Muxtar respublikada müasir vergi sistemi qurulmuşdur



*Fevralın 12-də Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin yaradılmasının 15 ili tamam olur. Ötən dövrdə muxtar respublikada müasir vergi xidmətinin yaranması, yenidən qurulması və təkmilləşdirilməsi istiqamətində ardıcıl işlər görülmüşdür.*

Ölkəmizdə vergi sisteminin yaradılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin ali hakimiyyətə ikinci qayıdışından sonra vergi sistemində də köklü dəyişikliklər aparılmış, onun müasir standartlar əsasında formalaşdırılması zərurət kimi qarşıya qoyulmuşdur. ***"Əgər biz müstəqil dövlətiksə, müstəqil inkişaf etmək istəyiriksə, biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik. Buna görə də vergi orqanlarının işinə daha çox diqqət yetirməliyik"***, – deyən ümummilli lider Heydər Əliyev vergi siyasəti sahəsində köklü islahatlar aparmışdır. Dahi rəhbərin 2000-ci il 11 fevral tarixli Fərmanına əsasən, Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Azərbaycan Respublikası Vergilər Nazirliyi yaradılmışdır. Beləliklə, dövlət vergi siyasətinin həyata keçirilməsi, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılması təmin edilmişdir. Bundan başqa, ölkəmizdə vergi qanunvericiliyi bazasının yaradılması prosesi uğurla həyata keçirilmiş, beynəlxalq təcrübə nəzərə alınaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsi qəbul edilmişdir. Bu məcəlləyə əsasən, vergi növlərinin sayı və dərəcələri aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı azaldılmış, vergi orqanı və vergi ödəyicilərinin hüquq və vəzifələri dəqiqləşdirilmiş, vergi nəzarətinin həyata keçirilmə forması və üsulları müəyyən edilmişdir.

Ümummilli liderimizin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bütün istiqamətlərdə, o cümlədən vergi siyasəti sahəsində də uğurla davam etdirilir. Dövlət başçısının 2005-ci il 12 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı (2005-2007-ci illər)" Vergilər Nazirliyinin ölkə iqtisadiyyatının inkişafı sahəsində vəzifə və məsuliyyətinin gələcək istiqamətlərini müəyyən etmişdir. Dövlət proqramının uğurlu icrası nəticəsində vergi inzibatçılığının formalaşdırılmasına nail olunmuş, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması istiqamətində mühüm nəticələr əldə edilmişdir. Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin işə salınması vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergi sistemində sənəd dövriyyəsinin elektron formata keçirilməsinə, operativ və çevik vergi nəzarətinin qurulmasına səbəb olmuşdur.

Ölkəmizin vergi sistemində aparılan islahatlar muxtar respublikada da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 12 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi yaradılmış, nazirliyin Əsasnaməsi təsdiq edilmişdir. Fəaliyyət göstərdiyi 15 il ərzində nazirlik böyük inkişaf yolu keçmiş, maddi-texniki bazası xeyli gücləndirilmiş, nazirlik və onun rayon şöbələri, Naxçıvan Şəhər Vergilər İdarəsi üçün müasir standartlara cavab verən binalar tikilərək istifadəyə verilmiş, əməkdaşlar üçün hərtərəfli iş şəraiti yaradılmışdır. Muxtar respublikada həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində vergi daxilolmalarının ahəngdarlığına nail olunmuş və proqnoz tapşırıqlar hər il artıqlaması ilə icra olunmuşdur.

Ölkə Prezidentinin sərəncamına əsasən, 2008-ci il yanvarın 1-dən etibarən sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyatı "bir pəncərə" prinsipi ilə həyata keçirilir. Sahibkarlıq mühitinin formalaşdırılması üçün böyük əhəmiyyət daşıyan bu dəyişiklik muxtar respublikada da sahibkarlıq sektoruna marağın gücləndirilməsinə və biznesin inkişafına təkan vermişdir. 2008-2014-cü illər ərzində muxtar respublika üzrə 189 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına, 10 min 510 fiziki şəxs isə sahibkarlıq uçotuna alınmışdır. Ötən dövr ərzində muxtar respublikada əlverişli investisiya mühiti yaradılmış, iş adamlarına öz bizneslərini inkişaf etdirmək üçün güzəştli kreditlər ayrılmış, yeni istehsal və xidmət sahələri istifadəyə verilmişdir. Bunun nəticəsində özəl sektor dinamik inkişaf edərək muxtar respublika iqtisadiyyatının əsasını təşkil etmiş, son 15 il ərzində özəl sektordan vergi daxilolmaları 8,5 faizdən 63,3 faizədək yüksəlmişdir.

Dünyanın inkişaf etmiş ölkələrində istifadə olunan yeni metodların tətbiqi vergi sisteminin daha etibarlı fəaliyyətinə və vergi ödəyicilərinin rahatlığına təminat verir. Bu mənada "Elektron bəyannamə" sistemi vergi orqanları ilə vergi ödəyiciləri arasında əlaqələrin tam şəffaf prinsiplər üzərində qurulmasına şərait yaradır. Hazırda muxtar respublikada vergi ödəyiciləri tərəfindən bəyannamələr elektron formada təqdim olunur. Həmin bəyannamələr operativ olaraq kameral vergi yoxlamalarından keçirilir və qanunauyğun tədbirlər görülür. 2014-cü il ərzində vergi ödəyiciləri tərəfindən təqdim olunmuş 22 min 824 vergi bəyannaməsinin vergi orqanlarında kameral və analoji qaydada yoxlanılması nəticəsində 355 vergi ödəyicisi tərəfindən təqdim edilən bəyannamələrdə vergilərin düzgün hesablanmaması aşkar edilmiş, 89 min 781 manat məbləğində vergi yenidən hesablanaraq büdcəyə ödənilmişdir.

Muxtar respublikada vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Belə ki, vətəndaşlar və vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsini təmin etmək məqsədilə 2010-cu il mart ayının 1-dən etibarən "onlayn kargüzarlıq" sisteminin tətbiqinə başlanılmışdır. Bu sistem sayəsində vətəndaşlar vergi orqanına göndərdikləri sənədin vergi orqanı daxilində hərəkətini "onlayn" rejimdə izləyə bilirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq, hazırda vergi orqanlarında reqlament üzrə nəzərdə tutulmuş 35 elektron xidmətdən 31-nin icrası təmin edilmişdir.

Aqrar sahənin inkişafı ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biridir. Ona görə də bu sahədə tətbiq edilən stimullaşdırıcı tədbirlərdən biri də vergi güzəştlərinin verilməsidir. Belə ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları 2014-cü il yanvarın 1-dən başlayaraq 5 il müddətinə torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilmişlər.

İnsan resurslarının idarə edilməsi həmişə üstün istiqamət hesab edildiyindən Vergilər Nazirliyi bacarıqlı və bilikli kadrların işə qəbulunu diqqət mərkəzində saxlayır, əməkdaşların peşəkarlığı artırılır. Bu sahədə görülən işlərin nəticəsidir ki, 2009-2014-cü illər ərzində 45 nəfər test imtahanından keçərək vergi orqanlarında xidmətə qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov vergi orqanları əməkdaşlarının qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Muxtar respublikamızda dövlət vergi siyasətinin həyata keçirilməsi istiqamətində ardıcıl tədbirlər görülür, vergi orqanlarının fəaliyyətinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Ona görə də muxtar respublikanın vergi orqanlarında çalışanlar öz işlərini qanunvericiliyin tələblərinə uyğun qurmalı, hüquqi və fiziki şəxslər tərəfindən vergilərin vaxtlı-vaxtında ödənilməsi, vergi ödəyicilərinə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi və vətəndaşlar arasında maarifləndirmə işlərinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmalıdır".***

Vergilər Nazirliyinin kollektivi qarşıya qoyulan bu tapşırıqların icrasını bundan sonra da layiqincə yerinə yetirəcək, muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfəsini verəcəkdir.

# Muxtar respublikada tələbata uyğun elektrik enerjisi istehsal olunur

***Enerji təhlükəsizliyi hər bir ölkə üçün strateji əhəmiyyət daşıyır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikanın bütün ərazisi dayanıqlı elektrik enerjisi ilə təmin olunmuşdur. Elektrik enerjisinin 24 saat fasiləsiz verilişinin təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Bu istiqamətdə işlər 2015-ci ilin yanvar ayı ərzində də davam etdirilmişdir.***

Ötən ay ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 37 milyon 555 min 850 kilovat-saat elektrik enerjisi daxil olmuş, tələbat yerli istehsal hesabına ödənilmişdir. Son illər yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi nəticəsində muxtar respublikada elektrik enerjisi tələbatdan artıq istehsal olunur. Bu da muxtar respublikanın ixrac imkanlarının genişlənməsinə şərait yaradır. Yanvar ayı ərzində muxtar respublikadan İran İslam Respublikasına 4 milyon 228 min kilovat-saat elektrik enerjisi ötürülmüşdür.

İşlədicilərin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması, ilk növbədə, avadanlıqların və elektrik şəbəkələrinin saz vəziyyətdə olmasından asılıdır. Buna görə də bütün elektrik stansiyalarındakı aqreqat və generatorlar, elektrik verilişi xətləri daimi nəzarətdə saxlanılır. Ay ərzində Araz Su Elektrik Stansiyasında generatorlar 5-6 meqavat, Naxçıvan Modul Elektrik stansiyasında 35-40 meqavat, Biləv və Arpaçay Su Elektrik stansiyalarında 2-3 meqavat güclə işləmişdir.

Muxtar respublikada 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq məqsədilə əvvəlcədən zəruri tədbirlər həyata keçirildiyindən yanvar ayı ərzində elektrik enerjisi təchizatında çətinlik olmamışdır. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlifgərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılır. Ötən ay Naxçıvan Modul Elektrik Stansiyasında sonuncu aqreqatın təmiri də başa çatdırılmış və sistemə qoşulmuşdur. Artıq stansiyadakı 10 aqreqatın hamısı işlək vəziyyətdədir. Kəngərli rayonunda tikinti-quraşdırma işləri davam etdirilən 35 meqavolt-amper güclü yeni 110 kilovoltluq "Qıvraq" yarımstansiyasındakı 25 və 10 meqavolt-amper güclü transformatorların 110 kilovoltluq eleqaz açarlarının, ayırıcıların, gərginlik və cərəyan transformatorlarının, boşaldıcıların, 35 və 10 kilovoltluq hücrələrin, idarəetmə və mühafizə qurğularının, akkumulyator batareyalarının quraşdırılması işləri yekunlaşdırılmışdır. Hazırda yarımstansiyada sınaqsazlama işləri görülür.

Bu ilin yanvar ayı ərzində də tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin və digər sosial obyektlərin, hərbi hissələrin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qoyulması, mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi işləri davam etdirilmişdir. Naxçıvan şəhərinin "Əlincə" məhəlləsində yeni tikilən sosial obyektlərin enerji təchizatı üçün 400 kilovolt-amper güclü transformator yarımstansiyası qoyulmuş, 2 ədəd müxtəlif güclü transformator yarımstansiyası əsaslı təmir olunmuş, 0,5 kilometr uzunluqlu elektrik verilişi xətti çəkilmişdir. Bu istiqamətdə işlər muxtar respublikanın digər yaşayış məntəqələrində də yerinə yetirilmişdir. Belə ki, Şərur rayonunun Kürkənd və Babək rayonunun Şəkərabad kəndlərindəki 10/0,4 kilovoltluq transformator yarımstansiyaları, həmçinin Culfa rayonunun Bənəniyar kəndində 7 transformator yarımstansiyası əsaslı təmir edilmiş, yeni elektrik verilişi xətləri çəkilmiş və ya yenisi ilə əvəz edilmişdir. Ümumiyyətlə, yanvar ayı ərzində muxtar respublikanın şəhər və kəndlərində 1 ədəd yeni transformator yarımstansiyası qoyulmuş, 11,5 kilometr uzunluqlu 10 və 0,4 kilovoltluq elektrik verilişi xətti çəkilmişdir. Təmir işlərinin vaxtında və səmərəli təşkili üçün 2015-ci ilin yanvar ayı ərzində Naxçıvan, Şərur, Culfa transformator təmiri sexləri lazımi materiallarla təchiz edilmişdir.

Ay ərzində elektrik enerjisindən qanunsuz istifadənin qarşısının alınması və istifadə qaydalarına düzgün əməl olunması məqsədilə maarifləndirici və profilaktik tədbirlərin təşkili də davam etdirilmişdir. Agentliyin mütəxəssisləri müvafiq qurumların əməkdaşları ilə birlikdə reydlər aparmış, sayğacdankənar müdaxilələrin və elektrik enerjisindən israfçılıqla istifadənin qarşısı alınmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin kollektivi növbəti aylarda da qarşıya qoyulan vəzifələrin icrası sahəsində səylə çalışacaqdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti**

***Muxtar respublikada hava nəqliyyatı sistemi hər ötən il daha da təkmilləşdirilir. Bu istiqamətdə görülən tədbirlər, müasir infrastrukturun yaradılması Naxçıvan Beynəlxalq Hava Limanında xidmətin səviyyəsini xeyli yüksəltmişdir.***

# Hava nəqliyyatında xidmətin səviyyəsi yüksəldilir

2015-ci ilin ilk ayında Naxçıvan Beynəlxalq Hava Limanında sərnişin və yükdaşımalarının etibarlı və təhlükəsiz təşkil olunması diqqət mərkəzində saxlanılmış, hava gəmilərinə və digər bütün texniki vasitələrə baxış keçirilmiş, baş verən nasazlıqlar aradan qaldırılmışdır. Uçuş-enmə zolağı və onun kənarlarındakı örtülü suötürücü kanallar yoxlanılmış, perron və dayanacaqlarda təmir işləri aparılmışdır. Yanğın nasos stansiyasının mühərriklərinə texniki xidmət göstərilmiş, işıqlandırma vasitələrinin avtomatik rejimdə işləməsi təmin olunmuşdur.

Yanvar ayı ərzində yerli hava xətti ilə 17007 sərnişin, 212 min 924 kiloqram baqaj, 71009 kiloqram yük və 2425 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətti üzrə isə Naxçıvan-Moskva reysi ilə 168 sərnişin, 2645 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 356 sərnişin və 3791 kiloqram baqaj daşınmışdır.

İnzibati binalarda iş şəraitinin yaxşılaşdırılması, işin keyfiyyətinin artırılması və sərnişinlərə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər yanvar ayında da davam etdirilmişdir. Belə ki, qeydiyyat avadanlıqlarında yaranmış nasazlıqlar aradan qaldırılmış, yanğından mühafizə sisteminin cihazlarının daimi işləməsi təmin olunmuşdur. Həmçinin X-Ray avadanlıqlarına, şlaqbaum və hidravlik baryerlərində profilaktik və texniki işlər aparılmışdır.

Yanacaq-sürtgü materiallarının tələbata uyğun tədarükü xidmətin fasiləsiz təşkilində əsas şərtdir. 2015-cü ilin yanvar ayında yanacaqdolduran maşınlar yoxlamadan keçirilmişdir. Bu dövr ərzində 34 min litr TS-1 yanacağı daşınaraq yanacaq-sürtgü materialları anbarına daxil edilmişdir. Yanğın təhlükəsizliyi və qəza-xilasetmə xidmətləri üzrə də müvafiq işlər görülmüşdür. Belə ki, yanğınsöndürən avtomobillərə texniki baxış keçirilmiş, yararsız balonlar yeniləri ilə əvəz edilmiş, xidməti ərazilərdə profilaktik yoxlamalar aparılmışdır. Təhlükəsizlik texnikalarının sazlığı diqqət mərkəzində saxlanılmış, hava limanına giriş, təyyarəyə buraxılış və yük bölmələrində yerləşən monitorlara, metal axtaranlara baxış keçirilmişdir. Təhlükəsizlik sisteminin gücləndirilməsi üçün aviakassa binasında əlavə 1 ədəd müşahidə kamerası quraşdırılmışdır.

Xidmətin günün tələbləri səviyyəsində təşkili yaradılan müasir infrastrukturla yanaşı, həm də işçilərin peşəkarlığından asılıdır. Ötən ay Naxçıvan Beynəlxalq Hava Limanında bu amil diqqətdə saxlanılmış, yanğın təhlükəsizliyi və qəza-xilasetmə komandasının işçiləri üçün təlimlər keçirilmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanının kollektivi növbəti aylarda da xidmətin günün tələbləri səviyyəsində təşkilini diqqət mərkəzində saxlayacaqdır.

**Naxçıvan Beynəlxalq Hava Limanı**

Göy qurşağı

№ 09 “Şərq qapısı”nın ədəbiyyat əlavəsi 12 fevral 2015-ci il

# Ədəbi mühitə qayğı artır

## *Bunun müqabilində ədəbi proses, bədii yaradıcılıq işi daha da güclənməlidir*

***Qədim dövr ədəbiyyatımızdan üzü bəri söz sənətimiz, ədəbi nümunələrimiz bəşər övladına üç əsas keyfiyyət aşılayıb: cəngavərlik, aşiqlik, filosofluq. Bu keyfiyyətlər özlüyündə dərin mənalar daşıyıb və insanları bu mənaları duymağa səsləyib. Cəngavərlik özündə vətənpərvərlik, məğrurluq, dosta sədaqət, cəsarət, sözü və əqidəsi bütövlük ehtiva edib; aşiqlik keyfiyyəti ədəbi şəxsiyyətlərimizin yaradıcılığında iki istiqamətdə təzahür edib: İlahi sevgi və dünyavi məhəbbət.***

Nəticədə, aşiqliyin hər iki forması insana nəcib duyğular aşılayıb, Vətən sevgisinin, ata-ana, dost-yar məhəbbətinin insanı uca tutduğunu tərənnüm edib. Və məlum olub ki, bütün bu sevginin fövqündə İlahi məhəbbət dayanıb. Bu məhəbbəti duyan Nizami, Füzuli, Nəsimi, Cavid kimi klassiklərimiz kamillik zirvəsinə ucalıblar. Sonuncu keyfiyyət filosofluqdur ki, sadalananları mənalandırıb, bu günümüzə gətirib çıxarıb. Bu mənada ədəbiyyat təsvir və tərənnüm olunan cəngavərlikdir, dahi Füzulinin dediyi kimi, aşiqlik istedadıdır və nəhayət, Cavid yaradıcılığında öz həllini tapan fəlsəfi idrakdır.

Müasir ədəbiyyatın bu xəttə xüsusilə ehtiyacı var. Ədəbiyyatımızda bu inkişaf xətti özünü göstərəcək ki, dövrün həqiqətlərini əks etdirməyə onda güc, istedad olsun. O dövrün ki, Vətəninin inkişafını, qazandığı uğurları dünya xalqları heyranlıqla izləyir. Ədəbiyyat bu uğurların müəllifləri olan şəxsiyyətləri tərənnüm edə biləcək poetik gücə sahib olmalıdır; ədəbiyyat bəhs olunan heyranlıqları təsvir etməkdə mahir olmalıdır. Ki, gələcək nəsillərə onların da öz gələcəklərini inkişaf etdirməyi əmanət qoya bilsin. Unudulmamalıdır ki, ədəbiyyatın bəşəri əhəmiyyəti və vəzifələrindən biri də bundan ibarətdir. Qələmə alındığı dövrün ictimai-siyasi durumunu, adət-ənənələrini, qanunlarını, insanların yaşayış tərzini gələcəyə daşıyan tarixi romanların yazılması müasir ədəbiyyatın əsas vəzifələrindəndir. Tarixi mövzuda yazılmış bədii əsər insanlara bədii kamillik aşılamaqla yanaşı, tarixin bəzi dövrlərinə aid pərakəndə məlumatların, mənbələrin sistemləşdirilməsi rolunu da oynamış olur. Bu mənada müasir günümüzdə yaşadığımız dövrün bədii salnaməsini süjet şəklində gələcək oxuculara təqdim edə biləcək sanballı bədii əsərlərin yazılması vacibdir. Məhz belə əsərlər müasir günümüzün qayda-qanunlarını, cəmiyyətin həyat tərzini, bu gün yaşadılan milli dəyərlərimizi gələcək nəsillərə çatdıran və keçmişlə əlaqə yaradan körpü rolunu oynayır. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin 2012-ci ilin oktyabrında keçirilən konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“… Ədəbiyyat bütün tarix boyu xalqların yaradıcı dühasının və intellektual potensialının göstəricisi olub. Xalqların həyatının müxtəlif mərhələlərində ədəbiyyat konkret tarixi missiyanı həyata keçirir. Hətta ordusu olmayan və buna görə də sərhədlərini qoruya bilməyən xalqların milli yaddaş və mədəniyyət sərhədlərini onların malik olduqları yazılı və şifahi ədəbiyyat qoruyub. Bu, ədəbiyyatın tarixdə oynadığı ən mühüm missiyadır”.***

Azərbaycan xalqı son iki yüz ildə bir neçə fərqli quruluşlarda həyat sürüb: çarizm, XX əsrin əvvəllərində Xalq Cümhuriyyətinin qurulmasından həmin əsrin 40-cı illəri, sovet dövrləri və günümüzün əbədi müstəqillik dövrü. Sadalanan ilk üç dövrdə ədəbiyyatımız fərqli məcralarda inkişafına davam edib. Çar üsul-idarəsinin tənqidi XIX əsr ədəbiyyatımızın əsas mövzularından olub. XX əsrin əvvəlləri və Xalq Cümhuriyyətinin yaranmasından repressiya dövrünə qədər olan zaman dilimi ədəbiyyatımıza millilik aşılamaqla bu gün milli dəyərlərimiz kimi tanınan bir çox həqiqətləri müstəqil Azərbaycana əmanət qoydu. Məhz o dövrün ediblərinin əsərlərində bayrağımız tərənnüm və tərif edildi, xalqımızın real tarixi taleyi ədəbi əsərlərin mövzusuna çevrildi və sair. Sovet dövründə ədəbiyyatımız milli tərənnüm və təsvirdən uzaqlaşdırılırdı. Hətta ötən əsrin 50-ci illərinin sonlarına qədər dastan yaradıcılığımız və repressiya dövrünə qədər yazıb-yaradan ediblərin yaradıcılığı mürtəce ədəbiyyat nümunələri kimi qadağan edilmişdi. Sonralar həmin yaradıcılıq məhsullarına bəraət verildi, amma daha heç kim nə onların milli zəmində tədqiqinə qol qoydu, nə də o gücdə əsərlər ərsəyə gəldi. Lakin ötən əsrin 70-ci illərindən etibarən yaradıcı ziyalılar dövlət səviyyəsində himayə olundu, sağlam ədəbi mühitin yaradılması üçün zəmin yaradıldı, bir zamanlar tənqid edilməsi belə qadağan olunan əsərlər tədqiq edilməyə və həmin əsərlərin müəlliflərinin həyatı araşdırılmağa başlandı, əldə edilən nəticələr dərsliklərə salındı. Bundan sonra ədəbiyyatımızda tariximizi əks etdirən əsərlər yaranmağa başladı, bu mövzularda kinofilmlər çəkildi. Bütün bunlar tarixi keçmişə qayıdışla, adət-ənənələrimizi təbliğ və bərpa etməklə nəticələndi. Sözügedən nəticəninsə bəhrələrini ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyə qovuşmaqla yaşadıq. Eyni zamanda məhz belə bədii əsərlərin ərsəyə gəlməsi nəticəsində tarix elmi öz əsl funksiyasını yerinə yetirməyə başladı desək, səhv etmərik. Bütün bu deyilənlər ədəbiyyatın gücünü, cəmiyyət üçün nə qədər lazımlı olduğunu göstərir. Buna görə bütün dövrlərdə ədəbi əsərlərin yazılması və ədəbiyyatın inkişafı vacibdir. Bunun üçün son 20 ildə muxtar respublikada xeyli iş görülüb. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin fəaliyyətinə hərtərəfli şərait yaradılıb, yaradıcı ziyalılar dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Ədəbiyyat məzmun gözəlliyi ilə forma gözəlliyinin birliyidir. Bu amil muxtar respublikada həyatın bütün sahələrində özünü göstərir; qalır Naxçıvanın maddi (forma) və mənəvi (məzmun) gözəlliyini təsvir və tərənnüm edən əsər ortaya qoymaq. Başqa sözlə, Naxçıvanın istər şair, istərsə də yazıçı üçün tərənnüm və təsvir edilə biləcək mövzuya səbəb olan inkişaf modeli yaradıcı ədəbiyyat adamlarına yaradılan şərait kimi də qiymətləndirilməlidir. Naxçıvanda xalq yaradıcılığı günlərinin keçirilməsi ilə bağlı muxtar respublika rəhbərinin imzaladığı sərəncam, 2012-ci ilin Naxçıvanda “Milli dəyərlər ili” elan olunması kimi mədəni hadisələr Naxçıvan ədəbi mühiti üçün kifayət qədər mövzu bazası rolunu oynamaqdadır. Belə ki, adət-ənənələrimizin təbliği, yaşadılması, milli dəyərlərimizin gələcək nəsillərə aşılanmasında bu mövzularda yazılmış bədii əsərlərin rolu ölçüyəgəlməzdir. Məsələn, bir kənd həyatının toy adət-ənənələrinin nəsr və ya nəzmlə canlandırılması, burada aparılan quruculuq tədbirlərinin süjetli şəkildə obrazların dili ilə təbliğ edilməsi ədəbi mühitin qarşısında duran vətəndaşlıq vəzifələrindəndir. Yaxud Naxçıvanın muxtariyyət qazanması ərəfəsindən bəhs edən oçerk, povest, roman, pyes və ya poemaların oxuculara təqdim edilməsi yaddaqalan tarixi salnamə kimi gələcək nəsillərə miras sayılmazmı?



Muxtar respublikada Naxçıvan ədəbi mühitində böyük ədəbi aləmə qədəm qoyan ediblərin yubileylərinin dövlət səviyyəsində qeyd olunması, onların həyat və yaradıcılıqlarının öyrənilərək məqalə, jurnal, kitab, monoqrafiyalar şəklində ictimaiyyətə çatdırılması daim diqqət mərkəzində olub. 2014-cü ildə muxtar respublika rəhbərinin imzaladığı “Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında” 20 avqust 2014-cü il tarixli, “Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında” 17 sentyabr 2014-cü il tarixli sərəncamları deyilənləri təsdiqləyən dövlət sənədləridir. Ötən il elm, təhsil və mədəniyyət müəssisələrində edibin həyat və fəaliyyətindən bəhs edən elmi konfrans və yubiley tədbirləri keçirildi. Bütün bu tədbirlərin yekunu kimi dekabrın 6-da pedaqoq-şair M.T.Sidqinin 160 illik yubileyi doğma vətənində – Ordubad şəhərində dövlət səviyyəsində qeyd olundu. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında” Sərəncamına əsasən, ötən il dekabrın 1-də – söz ustadının anım günündə doğulub boya-başa çatdığı Şahbuz rayonunun Nursu kəndində ev-muzeyinin açılışı oldu. Bütün bu mədəni tədbirlər Naxçıvanda ədəbi mühitin dövlət səviyyəsində himayə olunmasından, söz sənətkarlarının əziz xatirələrinin uca tutulmağından xəbər verir.



Şahbuz rayonunun Nursu kəndində Xalq şairi Məmməd Arazın ev-muzeyi

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin 2012-ci ilin oktyabrında keçirilən konfransında Ali Məclis Sədrinin proqram xarakterli istiqamətverici çıxışından sonra birliyin fəaliyyətində canlanma müşahidə olunmaqdadır.

***“Bu gün qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində yaradıcı insanların əməyinə daha çox ehtiyac duyulur. Milli və bəşəri dəyərlərin daşıyıcısı olan ədəbiyyatın fəal yaradıcı gücündən, müsbət enerjisindən insanlar həmişə olduğu kimi, bu gün də faydalana bilərlər. Düşünürük ki, buna nail olmaq üçün ədəbi prosesi, bədii yaradıcılıq işini gücləndirmək lazımdır ”,*** – deyən muxtar respublika rəhbəri xüsusilə vurğulamışdır ki, “Müstəqillik dövrünün özünəməxsus ədəbiyyatı olmalıdır”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri çıxışında müstəqillik dövrünün ədəbiyyatının necə olması haqqında dəyərli fikirlər səsləndirərək ədəbi mühitin milli fəaliyyət proqramını təqdim etmişdir: ***“… Bu dövrün ədəbiyyatı, birinci növbədə, vətənpərvər ədəbiyyat olmalıdır… Vətənpərvərlik yazıçı və ya şairin yaradıcılığının bütün mahiyyətini ifadə etməli, vətəndaşlıq duyğusunun daşıyıcısına çevrilməlidir… Yazıçı, dramaturq və şairlərimiz müstəqil və qüdrətli dövlətimizin layiqli vətəndaşları kimi fəal mövqedə dayanmalı, hadisələrə münasibətdə ortaya ziyalı mövqeyi qoymalıdır… Nə qədər qəribə olsa da, bugünkü Naxçıvan ədəbi mühitində nəsr, dramaturgiya, publisistika işlənməmiş sahə olaraq qalır”.***

Ədəbi mühitin işi təkcə ədəbi yaradıcılıq məhsulu ortaya qoymaqla bitmir. Fəal, yaradıcı ədəbi proses həm də cəmiyyətimiz üçün faydalı ola bilən bəşəri məzmun daşıyan xarici ədəbiyyat nümunələrinin dilimizə tərcüməsi ilə də səciyyələnməlidir. Ali Məclisin Sədri adıçəkilən konfransdakı çıxışında bədii tərcümə məsələsinə də toxunaraq demişdir: ***“Ciddi problemlərdən biri də bədii tərcümə ilə bağlıdır… Muxtar respublikamızda elmi və publisistik əsərlərin, tarixi mövzuda yazılmış kitabların tərcüməsi sahəsində müəyyən təcrübə vardır. Lakin istər klassik, istərsə də müasir bədii əsərlərin tərcüməsi sahəsində boşluq qalmaqdadır. Muxtar respublikada xarici dillərdən birbaşa tərcümə ilə məşğul olan yazıçı və şairlərin olmasını əsas götürərək Yazıçılar Birliyi nəzdində bədii tərcümə mərkəzi yaratmaq mümkündür”.***

Bədii tərcümə işinin təşkili ilə bağlı Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigarla söhbətimizdə birlik sədri bildirdi ki, 2012-ci ilin oktyabr konfransından sonra Yazıçılar Birliyinin nəzdində Bədii Tərcümə Mərkəzi yaradıldı, filologiya üzrə fəlsəfə doktoru, şair, tərcüməçi Şirməmməd Qüdrətoğlu mərkəzə rəhbər təyin edildi. Bundan sonra bədii tərcümə ilə məşğul olan şair və yazıçılardan Həmid Arzulunun, Şirməmməd Qüdrətoğlunun alman və ingilis dillərindən etdiyi tərcümələr, həmçinin şairlərdən Vaqif Məmmədovun, Elxan Yurdoğlunun Türkiyə poeziyasından çevirdiyi nümunələr ayrı-ayrı kitablarda oxuculara təqdim olunub. Son illərdə isə AMEA-nın müxbir üzvü Əbülfəz Amanoğlunun dünya ədəbiyyatının korifeylərindən sayılan Cəlaləddin Ruminin “Məsnəvi”sini ilk dəfə olaraq ana dilimizə çevirməsi müsbət ədəbi hadisə kimi dəyərləndirilir.

Bundan başqa, üç kitabdan ibarət “Dünyaya pəncərə” adlı almanaxa daxil olunan əsərlərin çoxu birbaşa orijinaldan edilən tərcümələrdir. Həmid Arzulunun alman ədəbiyyatından bir sıra tərcümələri də vardır ki, bunlar B.Brextin “Təbaşir xaç” və E.Lessinqin “Əsgər səadəti” əsərləridir. Şirməmməd Qüdrətoğlunun da orijinaldan etdiyi tərcümələr poetik ifadəliliyi ilə seçilir. Onun “Beyəvulf” dastanından (bir parça) etdiyi tərcümə, C.Coserin “Monastr keşişinin hekayəsi”, C.Q.Bayronun “Dəniz qulduru” kimi irihəcmli tərcümələri bu baxımdan diqqətəlayiqdir.

Həmyerlimiz Şamil Zamanın fransız dilindən etdiyi tərcümələr də ayrıca kitab şəklində oxuculara təqdim edilib. Müəllifin P.Beranje, V.Hüqo, A.Şenye, Ş.Zasayi, D.Jirardan etdiyi tərcümələr bədii dəyərinə görə maraq doğurur.

Öyrəndik ki, Kəmalə Ağayevanın, Hüseyn Razinin, İsa Həbibbəylinin, Vaqif Məmmədovun, Elxan Yurdoğlunun, Ələddin Abbasovun, Hüseyn Əsgərovun, Bağır Qədimin tərcüməsində Fransa, İngiltərə, Rusiya, Ukrayna, Misir, Türkiyə, İran şair və yazıçılarının yüzə yaxın şeiri, ondan artıq hekayəsinin cəmləşdiyi yeni almanax işıq üzü görüb.

Ötən “Muxtariyyət ili”ndə Naxçıvan ədəbi mühiti nümayəndələrinin şeirlər, poemalar, hekayələr, romanlar və tərcümələrdən ibarət 50-yə yaxın bədii əsəri, o cümlədən “Təmsillər”, “Şeir və hekayələr”, “Poema və pyeslər”, “Naxçıvanın şeir çələngi” (fransız dilində) adlı almanaxlar kitabsevərlərə təqdim edilib.

2015-ci ildə isə şeir, publisistik məqalə, folklor nümunələri, poema və məqalələrdən ibarət “Xoş baharlı Naxçıvanım” və “Naxçıvan folklor nümunələri” nəşr olunacaq. Bundan başqa, uşaqlar üçün şeir və hekayələrdən, Həmid Arzulunun və Şamil Zamanın xarici ədəbiyyatdan etdikləri tərcümələrindən ibarət kitablar çapa hazırlanır.

*Bütün bu faktlar onu göstərir ki, ictimai fikrə təsir edə və milli təəssübkeşimiz ola bilən əsərlər yazmağa Naxçıvan ədəbi mühitinin müəyyən qədər imkanı və bu imkanı nümayiş etdirə biləcək şərait mövcuddur. Fikrimizcə, oxucu Naxçıvanın bu gününü bədii təsvir və ifadə vasitələri ilə milli zəmində təsvir və tərənnüm edən roman janrında yazılmış əsərə, sözün əsl mənasında, susuzdur.*

**Səyyar MƏMMƏDOV**



# İslam Səfərli

***İslam Səfərli poetik duyumu ruhu oxşayan bir sənətkar, təmiz mənəviyyatı, saf duyğuları, ülviyyəti insanlara və insanlığa məlhəm bilən unudulmaz bir nəğməkardır. Bütün yaradıcılığı boyu ürəyinin səsinə qulaq asmış, başqalarını da bu səsin diktəsinə arxalanmağa çağırmışdır. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan İslam Səfərli öz yaradıcılığında ictimai lirikanı romantik pafosdan və tərənnümçülükdən xilas edərək ona səmimi, təbii duyğular bəxş etmişdir. Ədib öz əsərlərində sanki Azərbaycanın poetik xəritəsini çəkmiş, şeirlərində ölkəmizin əksər guşələrini vəsf etmişdir. O, Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə olaraq Naxçıvan silsiləsi yaratmış, bu mövzuda 30-dan artıq şeir yazmışdır.***

Bu gün İslam Səfərlinin anadan olmasının 92-ci ildönümüdür. O, 1923-cü il fevral ayının 12-də Naxçıvanın Şəkərabad kəndində anadan olmuşdur. İslam Səfərli ilk təhsilini həmin kənddə almış, sonra Naxçıvan şəhərindəki 1 nömrəli məktəbdə oxumuşdur. Müharibə illərində 416-cı atıcı diviziyanın sıralarında şərəfli döyüş yolu keçən İslam Səfərli azərbaycanlıların alman faşizminə qarşı mübarizədə göstərdikləri şücaəti şair və publisist kimi vəsf etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "İslam Səfərlinin 90 illik yubileyinin keçirilməsi haqqında" 2013-cü il 18 yanvar tarixli Sərəncamında deyildiyi kimi: ***"17 yaşında ədəbi yaradıcılığa başlayan İslam Səfərli böyük bir yaradıcılıq yolu keçmiş, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. İslam Səfərlinin mükəmməl bədii obrazlılığı ilə seçilən poeziyası bitkin vətənpərvərlik nümunəsidir. Nəğməkar şairin poetik nümunələrinə məşhur bəstəkarlarımız tərəfindən 200-ə yaxın mahnı bəstələnmişdir. Bu mahnılar bu gün də öz populyarlığını itirməmişdir. Bir-birindən maraqlı poemalar müəllifi kimi Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutan İslam Səfərli dramaturq kimi də böyük uğurlar qazanmışdır. Onun pyesləri dəfələrlə Azərbaycan Akademik Milli Dram Teatrında və Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulmuşdur. İslam Səfərlinin müxtəlif vaxtlarda qələmə aldığı şeir və poemaları, dram əsərləri, oçerk, novella, libretto və kino ssenariləri, rus və türkdilli klassiklərin əsərlərindən etdiyi tərcümələr onu öz dövrünün böyük ədibi kimi məşhurlaşdırmışdır".***

Şairin yaradıcılığına nüfuz etdikcə hiss edirsən ki, o, gözəlliyin, gözəl olanın aşiqidir, ülviyyətin, təmizliyin, müqəddəsliyin vurğunudur. Və bununla da şair sanki mənəvi olanı, əxlaqiliyi, tərbiyəviliyi gözəllik timsalı ilə qəlbə və idraka hopdurmağa çalışır. Göründüyü kimi, şair "Bəşəriyyəti gözəllik xilas edəcəkdir" estetik idealına daha üstün münasibət bəsləmişdir.

İslam Səfərli yaradıcılığının məğzini, mahiyyətini, bütövlükdə, məna-məqsədini hə-yatsevərlik kimi mənalandırmaq daha doğru olar. Onun yaradıcılıq fəlsəfəsinin əsasında, sözün geniş mənasında, məhz bu keyfiyyət durur. Bütün yaradıcılığında həyata dərin bir məhəbbətin, sevginin ətri, xoş rayihəsi duyulur.

İslam Səfərli yaradıcılığında Azərbaycanımızın bütöv bir xəritəsi canlanır. Bu xəritədə ölkənin şəhərlərinin, kəndlərinin, təbii gözəlliklərinin, axar-baxarlı mənzərələrinin, dağlarının, meşələrinin, çaylarının, göllərinin təsviri əsl təbiətsevər kimi böyük vətənpərvərliklə vəsf edilmişdir. Azərbaycanın elə bir dilbər guşəsi yoxdur ki, İslam Səfərli poeziyasında "öz rəngini, öz boyasını" tapmamış olsun. O, bu təbiəti böyük məhəbbətlə bağrına basır, oxşayır, əzizləyir, beləliklə, hər kəsdə elə, obaya məhəbbət hissi oyatmağa çalışırdı.

Naxçıvan diyarının Şərur düzləri, Batabat yaylağı, Xalxal meşəsi, Qızlar bulağı və yüzlərlə, minlərlə təbiət gözəllikləri ilə seçilən gəzməli-görməli yerləri şairin qürur, ilham mənbəyi idi. Onun doğma diyarla bağlı şeirləri böyük bir silsilə təşkil edir. İslam Səfərli doğma diyarı Naxçıvanın bütün gözəlliklərini, təbiətinin sirli rənglərini, boyalarını bir tam kimi qavrayır, vəsf edir. Nəğməkar şair təbiətə, gözəlliyə vurğunluq hisslərini bədii obraz şəklində təsvir və tərənnüm etməklə oxucuda təsvir olunan bu təbiət lövhəsinə vurğunluq hissi yaradır.

Ümumən götürdükdə İslam Səfərli yaradıcılığında vətənpərvərlik duyğularının tərənnümü iki mənbədən qidalanır. Birincisi, doğma Azərbaycana məhəbbət hislərinin tərənnümüdür, ikincisi, iştirakçısı olduğu 1941-1945-ci illər müharibəsində özünün və döyüş yoldaşlarının göstərdikləri şücaət və qəhrəmanlıq nümunələrini əks etdirmək istəyilə yazılmış əsərlərdir ki, bu əsərlər yetişən nəslin vətənpərvərlik tərbiyəsində, onlarda doğma diyara, el-obaya bağlılıq ruhunun aşılanmasında təsirli vasitə ola bilər.

İslam Səfərli insanın yaşadığı, boya-başa çatdığı el-obaya, Vətən dediyi torpağa bağlılığı, bu ülvi, müqəddəs məkana sədaqəti və məhəbbəti, öz əməlləri, xeyirxah işləri ilə verə biləcəyi faydanı bədii sözün qüdrəti, tərbiyəvi-mənəvi fikrin gücü ilə vəsf edə bilirdi. "Bayram töhfəsi" şeirində sənətkar çox gözəl ifadə edə bilir ki, bəstəkar, mühəndis, buruq ustası, şair – bütün sənət və peşə adamları öz xalqına, Vətəninə olan borcunu ödəməli, bu işdə bacarıq və qüvvəsini əsirgəməməlidir. Şairə görə, yalnız idraklı, hünərli insanlar Vətən mülkünə öz "əsərini" bəxş etmək qüdrətinə malikdirlər:

*Nəcib, düşüncəli bir bəstəkar qız,*
*Piano önündə oturmuş yalqız.*
*Şirmayı dillərdə gəzdirdikcə əl*
*Bir mahnı yaradır incə, şən, gözəl.*
*Bax bu da xoş günə – bayram gününə,*
*Qurbanı olduğum Vətən mülkünə*
*Bayram töhfəsidir,*
*Sevinc səsidir.*

Görkəmli şairin "Səs" adlı bir şeiri var. Bu poeziya nümunəsi bütün zamanlar üçün ibrətliliyi ilə səciyyələnməklə başımızın üstünü almış təhlükəni hələ sovetlər dönəmində bizim yaddaşımıza və ruhumuza "yazmaq" məqsədi daşıyır. Bütün ağaclar qoca palıdın ətrafına toplaşaraq "bu işdə içimizdən kiminsə əli var", – deyə hadisənin şübhə və həyəcanını yaşayır, baş vermiş təhlükənin mahiyyətini anlamağa çalışırlar. Bu zaman salxım söyüd meşənin kənarından bütün meşəni gözləyən təhlükənin, əsl fəlakətin nədən ibarət olduğu xəbərini gətirir:

*– Mən nə görsəm, yaxşıdır?*
*Xəyanətə baxın bir:*
*Bizi kəsən baltanın*
*Sapı bu meşədəndir!*

Şair ulularımızın ayaq izlərini qoruyub hifz eyləyən torpaqlarımızı qarış-qarış gəzib-dolaşmaqla özünün mənəvi simasının əzəmətini, ucalığını yarada bilmişdir. Çünki o, bütün ruhu ilə, varlığı ilə duyur və dərk edirdi ki, Vətən insanın "əbədi beşiyi"dir:

*Babamızın kölgəli*
*Çətri bu torpaqdadır,*
*Qəbri bu torpaqdadır.*
*Nənəmizin gül kimi*
*Ətri bu torpaqdadır,*
*Qəbri bu torpaqdadır.*
*El qədrini bilənin*
*Qədri bu torpaqdadır,*
*Qəbri bu torpaqdadır.*
*Mən də qızıl şahinəm,*
*Aranlıyam, dağlıyam,*
*Ulu əcdadım kimi*
*Torpağıma bağlıyam.*
*O, olum beşiyimdir,*
*O, ölüm beşiyimdir!..*

Bir cəhəti də qeyd edək ki, İslam Səfərlinin həyatı və yaradıcılığı kifayət qədər öyrənilməmişdir. Zamanında sayılıb-seçilən, oxucu kütləsinin və ədəbi mühitin rəğbətini qazanan sənətkar sonralar nədənsə sanki unudulmuşdu. Lakin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "İslam Səfərlinin 90 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı nəğməkar şairin həyat yolu və yaradıcılığının daha ətraflı öyrənilməsi işinə əsaslı stimul vermişdir. Ali Məclis Sədrinin Sərəncamına uyğun olaraq, 2013-cü ildə İslam Səfərlinin 90 illik yubileyi muxtar respublikada geniş qeyd olunmuş, şairin yaradıcılığı tədqiqata cəlb edilmiş, ədibin əsərləri yenidən səhnələşdirilmiş, haqqında kitablar yazılmışdır. Qəlbi incə, sözü zərif, rübabından şirin nəğmələr qopan şair İslamın bir az da tələş və nigarançılıqla yoğrulmuş bu arzusu artıq həqiqətə çevrilmişdir:

*Dalğalı Arazın göy yaxasında*
*Durur əzəmətli şəhərim mənim.*
*Onun hər evində, hər obasında*
*Kaş ki səslənəydi sözlərim mənim.*

S.ƏZİMOVA

## Naxçıvanım

**Çöllərindən keçən mənəm,**
**Söz qoşmamış keçəmmənəm,**
**Sularından içən mənəm,**
**Mənim barlı Naxçıvanım,**
**Xoş baharlı Naxçıvanım.**
**Qızların var xumar gözlü,**
**Mah camallı, şirin sözlü.**
**Göy dərəli, məxmər duzlu,**
**Başı qarlı Naxçıvanım,**
**Xoş baharlı Naxçıvanım.**
**Gör nə çalır könül simi:**
**– Şeirə verdim mən eşqimi.**
**Mirzə Cəlil, Bəhruz kimi**
**Sənətkarlı Naxçıvanım,**
**Xoş baharlı Naxçıvanım.**
**Zirvələrin dənər qarlı,**
**Şimşəklərin od çaxarlı.**
**Ey axarlı, ey baxarlı,**
**Ey gülzarlı Naxçıvanım,**
**Xoş baharlı Naxçıvanım.**
**Mən neylərəm sənsiz görən?**
**Doymaz səndə ömür sürən.**
**Ey İslama könül verən**
**Düz ilqarlı Naxçıvanım,**
**Xoş baharlı Naxçıvanım.**



İslam Səfərli adına Naxçıvan şəhər 1 nömrəli tam orta məktəb



Naxçıvan şəhərinin İslam Səfərli küçəsi

# Məktublarda yaşanan ömür

**"...Məndə qalan bircə bu dəftərdir ki, vaxtilə mən Cavidin atama yazdığı məktubların surətini oraya köçürmüşəm. Bu dəftər mənim üçün nə qədər qiymətli olsa da, onu unudulmaz dostum və böyük qardaşımın ev-muzeyinə göndərməyi mümkün bildim".**

Bu sətirlər görkəmli şərqşünas-alim Əziz Şərifin Hüseyn Cavidin Naxçıvandakı ev-muzeyinə göndərdiyi məktubdan götürülmüşdür.

Bu ev-muzeyini Cavidşünaslıq mərkəzi adlandırsaq, səhv etmərik. Çünki muzey təkcə Naxçıvan şəhəri və muxtar respublikamızda deyil, Azərbaycanda, hətta respublikamızın hüdudlarından çox-çox uzaqlarda yaşayan cavidsevərlərin ziyarət yerinə çevrilmişdir. Vaxtilə Cavidi görmüş, onunla tanış olmuş, birlikdə işləmiş, yazıb-yaratmış, həmçinin bu böyük sənətkardan sonra dünyaya gəlmiş ədəbiyyatsevərlər, tədqiqatçılar Cavidi daha dərindən duymaq, daha aydın qavramaq və öyrənmək məqsədilə teztez bu ünvana müraciət etmişlər. Maraqlı cəhət həm də burasındadır ki, muzeyə müraciət edənlərin çoxunda buradan nəsə öyrənib aparmaq meyli ilə yanaşı, ev-muzeyinə nəsə bağışlamaq həvəsi də olmuşdur. Kimdə ki H.Cavidlə bağlı hər hansı bir əşya, xatirə, kitab olubsa, onu bu ev-muzeyinə yadigar vermək istəmişdir.

Bu mənada professor Əziz Şərifin muzeyə bağışladığı və özünün qeyd etdiyi kimi, "onda qalan bircə dəftər" də çox qiymətlidir. Bu dəftərdə H.Cavidin həyat və yaradıcılığına müəyyən təsiri olan 1906-1910-cu illər İstanbul dövrü əhatə olunur.

Otuz səhifəlik bu köhnə, lakin səliqə ilə saxlanmış qiymətli dəftərin iyirmi altıncı səhifəsində Əziz Şərifin öz xətti ilə yazdığı belə bir qeyd diqqəti cəlb edir: *"Bu məktub da xalis osmanlı dilindədir. İlk məktubdan (aprel 1906) bu son məktuba (mart 1910) qədər dörd ilin ərzində dil yavaş-yavaş dəyişilmiş, osmanlılaşmış, Hüseyn Salik də Hüseyn Cavidə çevrilmişdir".*

Qeydin özündən göründüyü kimi, H.Cavidin məktubları Cavidşünaslıqda nəinki tarixi və ədəbi, hətta dil və üslubiyyat baxımından da son dərəcə qiymətlidir. Hamıya məlum olduğu kimi, zaman anlayışından təcrid olunmayan tarix özü həmin ömür parçasını Cavidin şəxsiyyətinə qarşı çevirməyə, ondan ittihamnamə kimi istifadə etməyə bəzən müvəffəq olmuşdur. Zaman və məkan anlayışının özündən hələ əməlli-başlı baş çıxara bilməyənlər həmin illərin H.Caviddə buraxdığı təsiri əldə bayraq edərək onun sənətinə qəsbkar kəsilmişlər. İllər keçəcək, Cavid sənətinin əsl üzünü görmək istəməyənlər və ya görməyi, sadəcə olaraq, bacarmayanlar Cavidi lüğətinin bir qədər mürəkkəbliyinə görə "pantürkist" və hətta "panislamist" adlandıracaq, bununla kifayətlənməyib bu sözləri damğa kimi onun bütün yaradıcılığına möhürləmək cəhdindən də çəkinməyəcəkdilər.

Lakin tarix nəhəng dənizə, okeana bənzəyir. Dalğalar suyun üstündə atılıb-düşən çör-çöpü bir göz qırpımında quruya atır, nəhəng gövdələri, qollu-budaqlı ağacları isə müvəqqəti öz ağuşuna almağa müvəffəq olsa da, onu nə batıra, nə də özündən kənara ata bilir.

Elə bu baxımdan Cavid sənətinin daha prinsipial mövqedən tədqiq edilməsində Əziz Şərifin hədiyyəsi olan bir dəftər dolusu məktublar qiymətli bir mənbədir.

**Bəhruz AXUNDOV**
***Hüseyn Cavidin ev-muzeyinin direktoru***

# Könül dostu Naxçıvanım



**Mənim könlüm pərvanədir doğulduğum bu torpağa,**
**Mənim gözüm heyran qalıb bu vüsətə, bu növrağa.**
**Mənim sözüm çiçək kimi səpildikcə ağ varağa**
**Misra-misra dalğalanır, qanadlanır həyəcanım,**
**Ata yurdum, Ana yurdum, könül dostu Naxçıvanım.**

**Keçmişindən çox demişik, qatar-qatar qaladan da,**
**Qəhrəmanlıq tarixindən, müsibətdən, bəladan da...**
**Sən Arazın sahilində göz oxşayan əlvan buta**
**Bu gün başqa gözəllikdə yolum, izim, xanimanım,**
**Ata yurdum, Ana yurdum, könül dostu Naxçıvanım.**

**Elə bil ki, görməmişdik nə sən məni, nə mən səni,**
**Borc bitərmi sevmək ilə, xoş söz ilə, Vətən, səni.**
**Halal olsun döndərənə, var edənə gülşən səni,**
**Boz çöllərin bağça-bağım, dağ kəndlərin gül eyvanım,**
**Ata yurdum, Ana yurdum, könül dostu Naxçıvanım.**

**Yaxın, uzaq heyran qalır, alqışlayır bu hünəri,**
**Yüz illərə yadigardır bu illərin hər zəfəri.**
**Heç dilə də gətirməyir qazandığı bir zəfəri –**
**Belə rəhbər, belə mərddir əməl dostu qəhrəmanım,**
**Ata yurdum, Ana yurdum, könül dostu Naxçıvanım.**

**Qürur duydum Əcəmidən, Ata Heydər Əlisoydan,**
**Dədəm Qorqud dastanından–məhəbbətlə dolu boydan,**
**Əlincədən, Arpaçaydan, Qazan göldən, Ulu çaydan.**
**Atabəyim, Hinduşahım, dahi Tusim–kəhkəşanım,**
**Ata yurdum, Ana yurdum, könül dostu Naxçıvanım.**

**Bu çeşmədən su içənlər qovuşandır fəzilətə,**
**Həzrəti Nuh məqbərəsi ehtişamdır hər millətə,**
**Gəmiqaya kürsüsünə sinə gərib neçə qitə.**
**Eraların qapısıdır Azərbaycan – öz ünvanım,**
**Ata yurdum, Ana yurdum, könül dostu Naxçıvanım.**

**Muxtar QASIMZADƏ**

## Ustad və sitat

*Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır ki, həmişə cahilləri alim və divanələri aqil eylər.*

***Məhəmməd Tağı SİDQİ***

*Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən – həyatın məqsədi məhz budur.*

***Cəlil MƏMMƏDQULUZADƏ***

*Söz gərək oxkeçməz qayadan keçə,*
*Yoxdursa sözünün kəsəri, yazma.*
*Özün sevməyincə, sevilməyincə,*
*Özgədən məhəbbət əsəri yazma.*

***Məmməd ARAZ***

## Yeni nəşrlər



Tanınmış şair və publisist, tarix üzrə fəlsəfə doktoru, dosent Vaqif Məmmədovun bu yaxınlarda "Qeyrət" nəşriyyatında işıq üzü görən "Kərkinin taleyi" adlı kitabında Kərki kəndinin tarixindən və taleyindən bəhs olunur. 25 il əvvəl – 1990-cı ilin yanvar ayında ermənilər tərəfindən işğal olunmuş Kərki kəndinin keşməkeşli taleyinin, işğal ərəfəsində və işğal dövründə baş verən ictimai-siyasi proseslərin işıqlandırıldığı kitab muxtar respublika tarixinin mühüm bir mərhələsi haqqında dolğun məlumat əldə etmək üçün gərəkli mənbədir.

Kitabda oxucular müəllif tərəfindən üzə çıxarılmış, araşdırılaraq təhlil edilmiş faktlar və rəsmi məlumatlar əldə edəcəklər.

"Kərkinin taleyi" kitabına daxil edilmiş fotoşəkillər kəndin taleyi və tarixi haqqında daha ətraflı təsəvvürün yaranmasına imkan verir.

* * *



Zaur Vedilinin sayca on dördüncü kitabı olan "Dünyanı bağışlar mənə" şeirlər kitabında müəllifin son illərdə qələmə aldığı şeirlər, həmçinin rübailər, bayatılar, qəzəllərlə yanaşı, "Yeniləşən Naxçıvan" və "Zamanın ağrıları" adlı poemaları da toplanıb.

2014-cü ilin sonlarında "Elm və Təhsil" nəşriyyatında çapdan çıxan 196 səhifəlik kitabdakı şeirlərin mövzu əlvanlığı, poetik ifadələrin zənginliyi oxucuların da ürəyindən xəbər verəcək.

Kitaba Azərbaycan Respublikasının Əməkdar jurnalist, şair Telli Pənahqızı "Sözlə çəkilmiş tablolar müəllifi" adlı ön söz yazıb. Ön sözdə də qeyd olunduğu kimi, "Zaur yazdığı, müraciət etdiyi mövzuların daxili əhval-ruhiyyəsini çox gözəl hiss eləyib duya bildiyi üçün adi detallara belə, bədii fikirlə fəlsəfi anlam verə bilir".

* * *



Gənc şairə Gülsadə İbrahimlinin Əcəmi nəşriyyatında çapdan çıxan "Cənnətindən qovulan qadın" şeirlər kitabı son dərəcə maraqlıdır. 96 səhifədən ibarət olan kitab 300 tirajla nəşr olunub.

Kitabın redaktoru şair Elxan Yurdoğludur. "Cənnətindən qovulan qadın" gənc şairənin oxucularla dördüncü görüşüdür. Kitaba daxil olan şeirlər öz axıcılığı, lirik duyğuların tərənnümü baxımından diqqəti çəkən bədii nümunələrdir. "Abzas", "Cənnətindən qovulan qadın", "Mən Vətən qızıyam", "O qadın" kimi şeirlər insan duyğularının bədii əksi baxımından xüsusilə maraqlıdır.

* * *





Gənc yazar Tural Həsənli bu dəfə oxucularının görüşünə iki kitabla gəlib. "İgid ölər, igidlik ölməz" nəsr və "İki sıfır bir dörd" şeirlər kitabları Əcəmi nəşriyyatında nəşr olunub. Adıçəkilən nəşrlər gənc yazarın həyat təcrübələrinin bədii boyalarla oxucuya təqdim edildiyi şeir və nəsr yaradıcılığını özündə əks etdirir.

Hər iki kitabın redaktoru Muxtar Qasımzadədir. Kitablarda müəllifin lirik duyğuları ilə yanaşı, Vətəninə məhəbbət, igidlik, qəhrəmanlıq kimi yüksək keyfiyyətlər də bədii dillə ifadə olunub.

**Nərgiz İSMAYILOVA**

## Şöhrətimdir Naxçıvanım

Bir incidir Naxçıvanım,
Göz oxşayır hər ünvanım.
Qoca Şərqin qapısına
Nəqşi-Cahan yazıb adın.
Qeyrətimdir Naxçıvanım!
Şöhrətimdir Naxçıvanım!

Heydərimin arzuları
Çiçək açır bu torpaqda.
İntibahın töhfələri
Şəfəq saçır bu torpaqda.
Qeyrətimdir Naxçıvanım!
Şöhrətimdir Naxçıvanım!

Neçə-neçə memarların
Sənətinin özü yaşar.
Bura gələn qonaqların
Gözəlliklə könlün oxşar.
Qeyrətimdir Naxçıvanım!
Şöhrətimdir Naxçıvanım!

Amalımın, məsləyimin,
İlqarımın düzü burda.
Yeniliyin təntənəsi
Naxış vurub ulu yurda.
Qeyrətimdir Naxçıvanım!
Şöhrətimdir Naxçıvanım!

**Rövşən HÜSEYNOV**

## Naxçıvan

***Sonsuz tarix yatır hər qayasında,***
***Tarixi həkk olub daşa Naxçıvan.***
***Minbir gözəllik var hər boyasında,***
***Göz oxşayır, gəlir xoşa Naxçıvan,***
***Yaşa, ana yurdum, yaşa, Naxçıvan.***

***Sən mənim sinəmdə döyünən ürək,***
***Qəlbimdə bitməyən min arzu, dilək,***
***Hər tərəf al-əlvan, təzə-tər çiçək,***
***Az qalır sevincim daşa, Naxçıvan,***
***Yaşa, ana yurdum, yaşa, Naxçıvan.***

***Səmalar hüsnünə bir yaraşıqdır,***
***Bulaqlar qoynuna gur sarmaşıqdır,***
***Vəsfin telli sazdır, ürək aşıqdır,***
***İstər vəsfinə söz qoşa, Naxçıvan,***
***Yaşa, ana yurdum, yaşa, Naxçıvan.***

***Qüvvətli biləyim, damarda qanım,***
***Varlığım, həyatım, yaşayan canım,***
***Cahanın naxışı Nəqşi-Cahanım,***
***Adın deyilməyib boşa Naxçıvan,***
***Yaşa, ana yurdum, yaşa, Naxçıvan.***

**Taleh ODOĞLU**

## Azərbaycanımın cənnət guşəsi

*Həm qədim, həm yeni doğma şəhərim*
*Dünyanın bəzəyi Naxçıvanımdır.*
*Onunla açılır hər xoş səhərim,*
*Dünyanın bəzəyi Naxçıvanımdır.*

*Şahbuzun şəfalı, sərin havalı,*
*Şərurun tarixi Oğlanqalalı,*
*Ordubad limonu Tanrı halalı,*
*Dünyanın bəzəyi Naxçıvanımdır.*

*İgidlər yurdudu Culfa, Sədərək,*
*Yurda bir dayaqdı Kəngərli, Babək,*
*Tanımaqçün gəlib gəzəsən gərək,*
*Dünyanın bəzəyi Naxçıvanımdır.*

*Tarixdən danışır hər bir küçəsi,*
*Özünə bağlayır gələn hər kəsi.*
*Sevilir hər yerdə şirin ləhcəsi,*
*Dünyanın bəzəyi Naxçıvanımdır.*

*Şairlər məskəni, dahilər yurdu,*
*Tarixin özünü həyatda yordu.*
*Əcəmi hüsnünə naxışlar vurdu,*
*Dünyanın bəzəyi Naxçıvanımdır.*

*Tanınır, dünyaya yayılıb səsi,*
*Məşhurdur dağları, yaşıl meşəsi,*
*Azərbaycanımın cənnət guşəsi –*
*Dünyanın bəzəyi Naxçıvanımdır.*

*Qeyrətli oğullar hər gün, hər saat*
*Ona bəzək vurur, qururlar büsat.*
*Ona heyran qalıb dünya, kainat,*
*Dünyanın bəzəyi Naxçıvanımdır.*

*Aynurə ÜMİD*
*Goranboy rayon sakini,*
*Naxçıvan Tibb Kollecinin tələbəsi*

## Culfam

**Şərqin qapısının cilası Culfa,**
**Anam Naxçıvanın balası Culfa,**
**Arazın laləsi, lalası Culfa,**
**Sənin torpağına, daşına qurban.**

**Bənzəyir yazına sərt insanların,**
**Toxucu qızların, mərd oğlanların.**
**Müqəddəs and yerim od-ocaqların,**
**Sənin torpağına, daşına qurban.**

**Əlincə qalası, İlanlı dağı,**
**Milağın alması, almalı bağı,**
**Göydərə, Bənənyar cənnət qucağı,**
**Sənin torpağına, daşına qurban.**

**Camaldın, Xoşkeşin, Teyvaz gözəldir,**
**Gülüstan cənnətdir, Yaycı əzəldir,**
**Dizə başdan-başa şeir, qəzəldir,**
**Sənin torpağına, daşına qurban.**

**Dərdlərə dərmandır Şorsu bulağı,**
**Dadlı üzümləri, üzümün ağı,**
**Əzizdir qayası, daşı, torpağı,**
**Sənin torpağına, daşına qurban.**

**Qədimdən qədimdir bu gözəl diyar,**
**Günbəgün gəncləşir, tale ona yar.**
**Hər yanda bir sənət şah əsəri var,**
**Sənin torpağına, daşına qurban.**

**Mənim ana yurdum, qolum, qanadım,**
**Adınla ucalsın daima adım.**
**Əziz məmləkətim, and yerim, andım,**
**Sənin torpağına, daşına qurban.**

**Gülsadə İBRAHİMLİ**

## Duz dağı

*Hər daşında əsrlərin izi var,*
*Möcüzələr adasıdır Duz dağı.*
*Xəstə canı gümrah edib həmişə,*
*Minbir dərdin davasıdı Duz dağı.*

*Ağ kəmərdi Naxçıvanın belinə,*
*Adı düşüb bütün elin dilinə.*
*Bənzəri var ağ örpəkli gəlinə,*
*Gözəlliyin aynasıdır Duz dağı.*

*"Ömrün dönsün duz dağına" kəlamı,*
*Nurlu yola yolçu edir adamı.*
*Duzsuz olmaz süfrələrin heç tamı,*
*Ataların duasıdır Duz dağı.*

*Nuh yurdudur, dünya qədər var yaşı,*
*Xəzinədir qoynunda hər qarışı.*
*Həm loğmandır, həm dərmandır hər daşı,*
*Xəstə qəlbin şəfasıdır Duz dağı.*

*Zaur, bizə o, Tanrıdan paydır, pay,*
*Hansı dağı tutmaq olar ona tay?*
*Bəlkə, ondan öz nurunu alıb Ay?*
*Yerin-göyün ziyasıdır Duz dağı.*

**Zaur VEDİLİ**



# İnsanları kitabxanalara necə cəlb edə bilərik?

***Bu** gün etiraf eləməyə çəkindiyimiz bir həqiqət var: çoxumuz kitab oxumuruq. Amma bu kitab oxumamağın səbəbləri haqqında düşünmək ağlımızın ucundan belə keçmir. Halbuki kitab oxumaq bizim həm nitq qabiliyyətimizi formalaşdırır, həm düşüncə tərzimizi müəyyənləşdirir, həm də dünyagörüşümüzün artmasına səbəb olur. Kitablardan əldə etdiyimiz biliklər, oxuduğumuz əsərlərdəki qəhrəmanların həyat təcrübələri istər-istəməz bizim də həyatımızda bəzi vacib məqamlarda hansı qərarları qəbul etməyimizə kömək edir. Amma, çox təəssüf ki, kitablardan uzaq düşmüşük.*

Bəs kitaba əvvəlki marağı necə bərpa edə bilərik, insanları kitabxanalara yenidən necə qazandıra bilərik?! Bu suala aydınlıq gətirmək məqsədilə yolumuzu Kəngərli rayonundakı kitabxanalardan saldıq. İlk olaraq rayon mərkəzi kitabxanasına üz tutduq.



Kəngərli rayonunun Qarabağlar kənd mədəniyyət evində yerləşən rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktor əvəzi Gülşən Qurbanova ilə həmsöhbət olduq. Bildirdi ki, kitabxana sistemində 51 işçi çalışır. Sistemin ümumi kitab fondu 69 min 635 ədəddir. Bunun 15 min 993 ədədi mərkəzi kitabxananın fondunda, 7714 ədədi isə 11 qəsəbə və kənd filiallarının fondlarında olan kitablardır. Rayon Uşaq kitabxanasının fondunda isə 1824 ədəd kitab var.

Uşaq kitabxanasının oxu zalının müdiri Samirə Məmmədova ilə söhbətləşdik. Öyrəndik ki, kitabxananın oxucuları olsa da, bu, əvvəlki dövrlə müqayisədə azdır. "Ən fəal oxucumuz Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Aydan Şirzadovadır", – deyən Samirə xanım bildirdi ki, Aydan, demək olar ki, hər gün kitabxanamıza baş çəkir. Onun kitablara böyük marağı var. Hətta bəzən özüylə birlikdə sinif yoldaşlarını da gətirir. Düzdür, bəzən məktəblilər kitabxanamıza üz tutur. Bu zaman biz onlarla maarifləndirici söhbətlər apararaq onları daimi oxucu kimi qazanmağa çalışırıq. Bu istəyimizə qismən nail ola bilirik. Amma dövrün müasir texnoloji avadanlıqları ilə mübarizə aparmaq da asan deyil.

Üz tutduğumuz Böyükdüz kənd kitabxanasının müdiri Şəfiqə Əliyeva ilə, Xıncab kənd kitabxanasının müdiri Elnura Cəfərova ilə, Qıvraq qəsəbə kitabxanasının müdiri Hökümə Əhmədova ilə, Xok kənd kitabxanasının müdiri İradə Məmmədova ilə "Kitabxanalara necə oxucu cəlb edə bilərik?" sualı ətrafında müzakirələrimiz oldu.

Həmsöhbət olduğum kitabxanaçıların ümumi fikri isə belə idi ki, internet, sosial şəbəkələr, hər evdə bir düymə ilə baxa biləcəyimiz 200-dən çox televiziya kanalının mövcudluğu, mobil telefonlardan istifadə kitabdan uzaq düşməyə gətirib çıxarıb. Düzü, etiraf etməliyik ki, bütün bu sadalananlar həyatımızda ciddi vaxt qənaətinə səbəb olur.

Vətəndaşlarla söhbətlər zamanı kitabdan uzaq düşməyə səbəb kimi maraqlı əsərlərin yazılmamasını göstərsələr də, bütün bunlar özünü aldatmaqdan başqa bir şey deyildir.

Bu barədə Şahtaxtı kənd kitabxanasının müdiri Ülviyyə Şükürovanın maraqlı fikirləri var. Həmsöhbətim qeyd etdi ki, Kəngərli rayonu üzrə Yurdçu kəndindən başqa, bütün kənd kitabxanaları müasir binalarda yaradılmış gözəl şəraitlə təmin olunublar. Oxu zalları səliqəli, sakit, ölkəmizdə nəşr olunan son dövr dünya və yerli müəlliflərin ən dəyərli əsərləri kitabxanalarımıza verilir. Buna görə də oxucuların "yaxşı əsərlər yazılmır" bəhanəsi, sadəcə, özünü aldatmaqdır. Bu yaxınlarda rast gəldiyim bir sorğuda bir-birindən maraqlı cavablar olsa da, onlardan ikisini özüm üçün qeyd edib götürmüşəm. Həmin sorğuda iştirak edənlərin aşağıdakı fikirlərinə diqqəti yönəltmək istərdim.

"Həvəs varsa, texnika boş söhbətdi. Ciddi və mənalı işlər bizi maraqlandırmır, ona görə kitab oxumaq istəmirik. Halbuki oxumağa o qədər əla kitablar var ki".

"Oxumaq istəyən istənilən vaxtda və şəraitdə oxuyar. O ki qaldı maraq dairəsinə, bu boyda dünya ədəbiyyatı bəs nə üçündür?".

"Biz oxucuları kitabxanalara cəlb etmək üçün daimi tədbirlər keçiririk", – deyən Ülviyyə xanım əlavə etdi ki, bunun üçün tədbirlər planımız var. Hətta bəzən bir neçə oxucuyla məsləhətləşib hər hansı bir əsərin kitabxanada müzakirəsini keçirmişik. Kənd məktəbindən yuxarı sinif şagirdlərinin bəziləri, bir də kitabxanamızın fəal oxucuları bu müzakirələrdə iştirak edirlər. Amma yenə də başqa yollar fikirləşməliyik. Kitabı təbliğ etməliyik, oxutdurmalıyıq.

Ülviyyə xanımın bir fikri də xüsusilə qeyd olunmalıdır. Kitabxana müdiri bildirdi ki, kitaba sevgini balaca yaşdan evdə valideynlər formalaşdırmalıdır. Hər evdə şəxsi kitabxana olmasa, uşaqlar gözlərini açandan evdə atasının, anasının kitab oxuduğunu görməsə, kitablardan ayrı düşəcəklər. Ona görə də bu işi təkcə biz kitabxanaçılar həll edə bilmərik. Bizə valideynlərin də, məktəbdə müəllimlərin də dəstəyi lazımdır. Belə olan halda, inanın, qısa vaxt ərzində, əvvəlki dövrlərdə olduğu kimi, kitaba sevgini, marağı bərpa etmək mümkün olar.

Ülviyyə xanımın söylədiyi yuxarıdakı hər iki fikirlə razılaşmamaq olmur. Hələ həmin fikirlərə əlavə etsək ki, kitab oxumaq, həqiqətən də, ciddi işlə məşğul olmaqdır və son illərdə ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə müxtəlif istiqamətlərdəki əsərlərin yenidən latın qrafikası ilə nəşr olunması, onların ölkəmizin bütün kitabxanalarına paylanması, ən ucqar dağ və sərhəd kəndinin məktəb və kənd kitabxanasına belə, həmin nəşrlərdən yetərli sayda göndərilməsi maraqlı kitab oxumaq istəyənlər üçün kifayətdir.

Şəxsi kitabxana məsələsi bu gün, bəlkə də, qeyri-adi səslənə bilər. Amma 25-30 il bundan əvvələ kimi hər kəsin evində ən az bir kitab şkafı var idi ki, burda da satın aldığı, eləcə də hədiyyə edilmiş kitablar yer alırdı. Və həmin kitab şkafı evlərin ən diqqətçəkən guşəsinə qoyulardı ki, bu da bir intellekt və dünyagörüş səviyyəsinin nümayişi idi. Bu gün isə çox az evlərdə bu cür şəxsi kitabxanalar var.

Belə olan təqdirdə evlərimizdə böyüyən körpə uşaqların kitaba marağının olmamasının səbəbləri haqqında ciddi düşünməyə ehtiyac yoxdur. Hər evdə uşaqlar öz valideynlərindən gördüklərini götürür, özlərini ata və anaları kimi aparmağa çalışırlar. Nəticədə isə kitab oxumayan bir ata, bir ana, yaxud baba və nənədə görmədiyi kitab mütaliəsi uşaqlarımızda necə formalaşa bilər?

Əgər bu gün kəndlərimizdəki ən son avadanlıqlarla, səliqəli oxu zalları və kitab şkafları ilə təchiz edilmiş kitabxanalara il ərzində bir dəfə (!) də olsun yolumuzu salmırıqsa, il ərzində heç olmasa 5-10 kitab oxumaq "zəhmətinə" qatlaşmırıqsa, bizim, dolayısı ilə, evimizdə böyüyən uşaqların, nəticədə isə xalqımızın gələcəyi olan gənclərin dünyagörüşünün formalaşmasına hansı səviyyədə mane olduğumuzun fərqindəyikmi?

Hər kitabın bir gizli xəzinə olduğunu unutmamalıyıq. Və hər kitabın bizə verdiyi bilik və nəsihətlərin həyatımızın gələcək dövrlərində işimizə yarayacağına, əlimizdən tutacağına, çətin bir anda çıxış yolumuz olacağına şahid olmaq üçün kitablara üz tutmalıyıq.

Firidun bəy Köçərli "Əsl gözəllik surətdə deyil, ağıl və kamaldadır", – deyib. Evimizdəki övladlarımızın ağıl və kamalını düşünək. Onlara nümunə olaq. İlk işimiz isə övladlarımızın doğum günlərində onlara hədiyyə kimi kitab bağışlamaqdan ibarət olsun.

**Elxan YURDOĞLU**

***Azərbaycan ədəbi mühitinin ayrılmaz tərkib hissəsi olan Naxçıvan ədəbi mühiti ümumazərbaycan məkanında özünü təsdiq etdirib. Bu mühitin formalaşması prosesi uzun bir yol keçib. Azərbaycan ədəbiyyatına Mirzə Cəlil, Hüseyn Cavid, M.S.Ordubadi kimi görkəmli korifeylər bəxş edən Naxçıvan ədəbi mühiti bu gün hərtərəfli dövlət qayğısı əhatəsindədir. Tənqidçi-alim Əbülfəz Əzimli ilə söhbətimizdə bəzi suallara aydınlıq gətirməyə çalışdıq.***

# Ədəbi mühit cəmiyyətin inkişafından geri qalır

## *Əbülfəz Əzimli: Naxçıvanın müasir inkişafını, dünyaya nümunə olan sabitliyini əks etdirən sanballı əsərlər hələ yazılmayıb*

***– Azərbaycan ədəbi mühitində Naxçıvan ədəbi mühitinin yeri… Konkret olaraq, Naxçıvanda bugünkü ədəbi mühiti necə dəyərləndirirsiniz?***

– Ədəbiyyat, elm, sənət ciddi məsələdir – xalq, millət, Vətən, torpaq nə qədər ciddidirsə, söz sənəti, elm də o qədər ciddidir. Sizin bu sualınız da ciddi, konkret və kəsədir; çalışacağam, hər suanıza yığcam cavab verəm. Ədəbi mühit anlayışı da çox ciddidir: ədəbi mühit yaşadığımız zamanın sözü deməkdir: həm indi, həm də gələcək üçün bizim ağlımızın, düşüncəmizin, zövqümüzün aynasıdır. Gələcək nəsillər bizi oxuyub həm bizim, həm də xalqımızın, ictimai mühitimizin hansı qabiliyyətə malik olduğunu anlayacaqlar. Bəri başdan mən də belə sual verərdim ki, Naxçıvan ədəbi mühiti, klassik mənada "ədəbi mühit" meyarına cavab verirmi? Əlbəttə, cavab vermir. XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı Təbriz, Ərdəbil, Qarabağ, Şirvan, Naxçıvan, Bakı ədəbi mühitləri demək idi.

İndi Naxçıvan ədəbi mühiti ədəbi prosesdən geri qalır. Naxçıvan Yazıçılar Birliyinin 80 üzvü var, onların 7-8 nəfərində ədəbiyyat tələblərini tam olaraq gözləmək məharəti var.

Ədəbiyyat bizim daxilimizdə – ruhumuzda olmalıdır, bu, yoxdursa, deməli, hikmətimiz yoxdur, müdrikliyimiz yoxdur, qəlbimiz yoxdur;

*deməli, biz ruhumuzdan, qəlbimizdən, düşüncəmizdən kənarlaşmışıq;*

*deməli, bizim söz zövqümüz itib; deməli, qəlbimiz itib.*

Bütün klassik xalq ədəbiyyatı, klassik divan ədəbiyyatı ruh ədəbiyyatı idi, qəlb ədəbiyyatı idi, eşq ədəbiyyatı idi, hikmət ədəbiyyatı idi, humanizm ədəbiyyatı idi…

Bu meyarların indi hansı var ədəbi mühitdə?

İndi ədəbiyyata münasibətdə nə qədər qayğı varsa, bir o qədər də o qayğılardan sui-istifadə etmək istəyənlər var. Dövlət qayğısı onların başları üstündədir, amma bu şair-yazıçıların əksəriyyətində ədəbi-bədii mükəmməllik yoxdur.

***– Əbülfəz müəllim, siz məhsuldar tənqidçi kimi dəfələrlə nəşr edilən kitblardan bəhs etmisiniz. Ümumiyyətlə götürdükdə, ədəbi mühitdə bu qədər ki yazan var, onları konkret olaraq, necə səciyyələndirə bilərsiniz?***

– Ədəbi mühitdəki yazarları, cızmaqaraçıları hansı tərəzidən çeşidləmək məsələsi də bizim üçün ciddidir. Hər bir yazım çıxandan sonra "düşmənlərin" sayı da çoxalıb, salamlar kəsilib, qarayaxmalar ayaq açıb. Amma mən həmişə demişəm ki, dostlar, biz sözə, sənətə ədəbiyyat, sənət tələblərindən yanaşırıq, yalançı, saxta, riyakar münasibətlər tələbindən yox. Ona görə də qərəzi, kini bir tərəfə buraxın, gözəl şeir yazın, bir şeirə əlli səhifəlik təhlil yazaram. Nə isə…

Yazma qabiliyyətinə görə şairləri bir neçə qrupa bölmək olar:

**I qrup:** *şeir, söz onun ruhunun canıdır, ondan sözlər qaynayıb gəlir, bağçada quşlar, kəpənəklər kimi uçur sözlər; bunlar əsl söz sərraflarıdır;*

**II qrup:** *düşüncəsinin ardına düşüb sözləri qəlibə düzər kimi qafiyəli, mənalı şəklə salmağa çalışır. Beləlləri yazmaqda çətinlik çəkirlər: onların nə qədər qüsurlu şeirləri yaranır. Bu cür yazanların bütün şeirlərində qüsurlar var və onlar heç bir poetik tələbə məhəl qoymur və yaxud poetika tələblərini saymırlar;*

**III qrup:** *ayrı-ayrı şeir kitablarını qoyur papağının altına, başlayır oradakı misraların, bəndlərin qafiyələrinə, deyimlərinə, bənzətmələrinə uyğun bəndlər, misralar quraşdırır, lakin bu quraşdırdığı söz yığınından, qafiyə, fikir oğurluğundan başqa bir şey deyil: xülasə, sözçülükdən başqa bir şey yoxdur;*

**IV qrup:** *bunlar, sadəcə olaraq, III qrupda olanlar kimi şeir yazmaq mərəzinə tutulublar: ağızlarına nə gəlirsə, başlayırlar bənd düzəltməyə: yəni necə danışırsa, ondan da zəif olan nitqini misralar şəklinə düzür, başıpozuq qafiyələr quraşdırır.*

***– Əbülfəz müəllim, gəlin etiraf edək ki, bu gün həyatımızın geniş əks olunduğu roman və povestlər, səhnə təcəssümünü tapan dram əsərləri, demək olar ki, yoxdur...***

– Bizim üçün millət, yurd-yuva, Vətən anlayışından üstün bir anlayış yoxdur. Naxçıvan Azərbaycanın fəxri məkanlarındandır, burada ən etibarlı, sakit və sərbəst yaşam rahatlığı var. Naxçıvanın böyük inkişafını, dinc, sakit yaşam həyatını əks etdirəcək əsərlər yazılmayıb. Bu, o deməkdir ki, ədəbi-bədii sözün gücü yetərli deyil. Çünki ədəbi mühit həyatdan və cəmiyyətdən geri qalır. İrihəcmli əsərlər üçün nə qədər mövzular var. Amma o mövzuları qələmə alacaq güc yoxdur. Təəssüf ki, ideya və məzmunca qüsurlu olan əsərlər var. Məsələn, tarixi mövzularda yazılmış əsərlərdə tarixi gerçəklikləri əks etdirmək bədiiliyi qüsurludur. Dram sahəsində ədəbi prosesdə Həsənəli Eyvazlının bir neçə uğurlu əsərini qeyd edə bilərik. Onlardan "Araz sahilində doğan Günəş", "Türkmənçay qətli", "Ərtoğrol Cavid", "Qurtuluşa gedən yol", "Yasda toy əhvalatı" ədəbi prosesdəki boşluğa qarşı üzə çıxan əsərlərdir.

***– Ədəbi tənqidin son zamanlar ədəbi prosesdən geridə qalmasının səbəblərini nədə görürsünüz?***

– Ədəbi tənqid heç vaxt geri qalmır, geri qalan ədəbi prosesdir. Hər hansı bir məlumat yazmaq tənqid deyil. Tənqid qüsur axtarmaq, danos yazmaq da demək deyil ki, tənqidçiyə hücum edəsən. Tənqid təhlil və təsnifdir; ədəbi tənqid idrak, fəlsəfə elmidir. Tənqid ədəbi prosesin tərkib hissəsidir.

Ədəbi tənqid poetika meyarlarına malik olan elm sahəsidir. O, ədəbiyyatşünaslıqda ədəbi prosesə, əsərlərə qanun-qaydalar, poetik tələblər strukturundan yanaşma sistemidir. Mənim tənqid-təhlil meyarım həmişə sabit, prinsipial və tələbkardır – bu, hər gün bir yerdə çay içdiyim, çörək kəsdiyim dostlara qarşı da, üzünü görmədiyim yazarlara, sözçülərə qarşı da belədir. Bunu mənim oxucularım və dostlarım da zövqlə qarşılayırlar. Mən xalqımızın söz zövqünü, ictimai mühitimizin gözəl söz tələblərini hər şeydən üstün tuturam: millətin dil, söz, müdriklik zövqünə saymazlıq etmək millətin, xalqın, Vətənin adına qarşı sayğısızlıqdır.

***– Son dövrlər Naxçıvan ədəbi mühitində əvvəlki illərlə müqayisədə gənclərin fəallığı daha çox gözə çarpır. Bu, gələcəyə ümidlə baxmağa imkan verirmi?***

– Şair, ya yazıçını axtarmaqla tapmaq, yaxud onu yazar etmək olmaz. Gənclərə çox qayğı var, amma onların yazdıqlarına qarşı tələblər zəifdir. Gənc adı ilə kitabçalar çıxardılır, amma o kitabların bədii səviyyəsinə məhəl qoyulmur, o gənc də elə bilir ki, daha dahidir. Heç bir bədii meyara yatmayan, habelə adi söz yığınından ibarət olan kitabciyəzlərindən məst olurlar və elə güman edirlər ki, gözəl şeir, əsər yazıblar. Hesab edirəm ki, ədəbi mühit, şair və yazıçılar onlara göstərilən böyük qayğıya cavab verə bilmirlər. Ədəbi mühitin inkişafı üçün ciddi müzakirələr aparmaq lazımdır.

**Söhbətləşdi:**
**✍ Sara ƏZİMOVA**

Göy qurşağı
"Şərq qapısı"nın ədəbiyyat əlavəsi

Məsul şəxs
Səyyar MƏMMƏDOV

Redaksiya heyəti
Asim Yadigar, Yavuz Axundlu, Hüseyn Həşimli, Əbülfəz Amanoğlu, Xanəli Kərimli, Muxtar Qasımzadə, Əbülfəz Əzimli, Elxan Yurdoğlu, Qafar Qərib

Dövlət proqramı necə icra olunur?

## Ordubadda meyvəçiliyin şöhrəti özünə qaytarılır

***Südeyf Hacıyevi Ordubad rayonunda daha çox təhsil sahəsində saç-saqqal ağardan bir müəllim kimi tanıyırlar. Bu gün təqaüddə olan Südeyf Hacıyev həm də hələ gənclik illərindən bağçılıqla məşğul olur. Gözəl meyvə bağı var. Bağda növbənöv meyvə tingləri əkib. Yetişdirdiyi meyvələrin sorağı çox yerə yayılıb. Bu gün də özünün sevimli məşğuliyyətindən ayrılmır. Deyir ki, bağda çalışanda bir dinclik tapıram, bütün yorğunluğum canımdan çıxır.***



Son illər muxtar respublikada meyvəçiliyin inkişafı ilə bağlı görülən işlərdən xeyli sevindiyini bildirən Südeyf Hacıyev vurğulayır ki, Ordubad rayonunu təsadüfən bağlar diyarı adlandırmırlar. Tarixən Ordubad rayonunda ağac əkmək, ağac hədiyyə etmək, bağ salmaq adəti olub və bu xeyirxahlıq savab əməl sayılıb. Buraya yolu düşən səyyahlar Ordubad bağbanlarının səriştəsi, onların saldıqları bağlar, yetişdirdikləri meyvələr haqqında yüksək fikirlər söyləyib, hətta buradan dünyanın bir çox ölkələrinə müxtəlif tinglər aparıblar. Qədim mənbələrdə, yazılı kitabələrdə də Ordubad və onun meyvələri haqqında ətraflı məlumatlar verilir. Məşhur səyyah Hacı Zeynalabdin Şirvani, ingilis səyyahı Antona Cenkinson, rus akademiki İ.İ.Vavilov, Hollandiya səyyahı Le-Buyuni və başqalarının Ordubada, burada yetişdirilən meyvə sortlarına yüksək qiymət verdiklərini deyən Südeyf müəllim fransız etnoqrafı İ.İ.Şopenin Qafqazın, o cümlədən İrəvan və Naxçıvan xanlıqlarının tarixinə, coğrafiyasına həsr etdiyi əsərində əla meyvələri – üzümü, əriyi, şaftalısı, albuxarası, heyvası olan Ordubadın Qafqazda, hətta Şərqdə qazandığı şöhrət, həmçinin sağlam iqlimi haqqında məlumat verməsindən qürurla danışır. Deyir ki, Ordubad şəhər əhalisinin əsas məşğuliyyəti bağçılıqdır. Geniş meyvə bağları hər tərəfdən şəhəri əhatə edir. Ordubadın meyvələri bütün Orta Şərqdə şöhrət tapıb. Albuxarası, şaftalısı, əriyi, heyvası, cəvizi əladır. Söhbətimizə digər bir ordubadlı bağban Rahib Kərimov qoşulur:

– Ordubadda yetişdirilən meyvələrin müxtəlif sortları var. Məsələn, şaftalının ağnazlısı, narıncısı, yarma zəfəranı, ağ alanayısı, pulusu, payız salamısı və güştüsü öz dadı və tamı ilə tanınır. Ağ təbərzə, əbutalibi kimi ərik sortları yüz illərdir ki, Ordubadın, necə deyərlər, brendinə çevrilib. Meyvələr zahiri görünüşü cəhətdən nə qədər gözəldirsə, bir o qədər də şirin, lətif və ətirlidir. 1861-ci ildə Ordubad şaftalısı ABŞ-da təşkil edilmiş meyvəçilik sərgisində yüksək qiymətə layiq görülüb. Bu meyvə həmin qiyməti həm də Almaniyada və İtaliyada alıb, eyni zamanda Moskvada keçirilən ümumittifaq kənd təsərrüfatı sərgilərində yüksək dəyərləndirilib. Əbutalibi əriyi hələ 1898-ci ildə Kaliforniyada təşkil olunmuş ümumdünya meyvəçilik sərgisində birinci yerə layiq görülüb. Ümumilikdə isə Ordubad meyvələri dəfələrlə beynəlxalq sərgilərə çıxarılıb, 9 medal qazanılıb. Ordubad öz quru meyvələri (qaysava, qaysı, alana, basdıq və sair) ilə də tanınıb. Burada meyvələri qurudaraq qışa saxlamaq və çay süfrələrində onlardan istifadə etmək ənənəsi yerli məişətdə çox geniş yayılıb.

Məhəmmədəli Babayev də uzun illərdir ki, meyvəçiliklə məşğuldur. El ağsaqqalı deyir ki, vaxtilə bu bölgədə 40 növdə üzüm yetişdirilib. XX əsrin əvvəllərində Azərbaycanda yetişdirilən 40-dan artıq ərik növünün çoxu Ordubadın payına düşürdü. Burada həm də geniş əraziləri əhatə edən tut bağları olub. Bu ağacın meyvəsindən çərəz kimi istifadə olunur, doşab bişirilir, yarpaqlarından baramaçılıqda istifadə edilirdi.

Məlumat üçün bildirək ki, yetişdirilən meyvə məhsullarının emalı üçün 1928-ci ildə ilkin mərhələdə illik istehsal gücü 400 min şərti banka olan Ordubad Konserv Zavodu istifadəyə verilib. Ötən əsrin 80-ci illərinin ortalarında burada məhsul istehsalının həcmi 40 milyon ədəd şərti bankaya çatdırılıb. Bu dövrdə müəssisədə 20 adda müxtəlif konserv məhsulları – cəviz, qızılgül, qovun, ərik, gilənar, tut mürəbbələri, cem, şirələr, ərik və şaftalı kompotları istehsal edilib. Həmin məhsullar ölkəmizlə yanaşı, keçmiş SSRİ-nin müxtəlif respublikalarına və xarici ölkələrə də göndərilirdi.

“Bəs bu gün rayonda meyvəçilik sahəsində vəziyyət necədir?” – sualını Ordubad Rayon İcra Hakimiyyətinin şöbə müdiri Etibar İsmayılov cavablandırır:

– Təəssüf ki, ötən əsrin 90-cı illərinin əvvəllərində baş verən hadisələr Ordubada böyük şöhrət gətirmiş meyvə bağlarına da təsirsiz ötüşmədi. Sözün həqiqi mənasında, meyvə bağlarına balta çalındı. Bir vaxtlar rayona, həmçinin bölgə sakinlərinə iqtisadi cəhətdən xeyli gəlir gətirən meyvə bağlarının boş qalmış sahələri gözdağına çevrildi. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Ordubadda meyvəçiliyin, bağçılığın şöhrəti özünə qaytarılmaqdadır. Hər il yaz və payız aylarında keçirilən iməciliklərdə rayon ərazisində meyvə bağları salınması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilən “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” rayonda meyvəçiliyin inkişafına marağı daha da artırıb. Dövlət proqramında da qeyd edildiyi kimi, proqramın qəbulunda başlıca məqsəd bazar iqtisadiyyatı şəraitində muxtar respublikada meyvə istehsalının inkişaf etdirilməsindən, yüksək istehlak xüsusiyyətlərinə malik meyvə bağlarının salınmasından, onların ixtisaslaşdırılmasından, yerli şəraitə uyğun unudulmaqda olan məhsuldar sortların bərpasından, müasir standartlara cavab verən texnologiyalar əsasında yeni meyvə emalı müəssisələrinin yaradılmasından ibarətdir. Bu baxımdan Ordubad rayonu daha geniş imkanlara malikdir. Bu imkanlardan səmərəli istifadə olunur. Öyrəndik ki, 2004-cü ildən 2015-ci ilədək rayonda 137,9 hektar sahədə meyvə bağı salınıb. Yeni salınan meyvə bağlarının 13,4 hektarı keçən ilin payına düşüb. Sabirkənddə Xəlil Fərəcov, Nəsirvazda Nicat Rzayev, Xursda Çimnaz Bayramova, Unusda Hüseyn Mirzəyev və başqaları unudulmaqda olan meyvə sortları tinglərinin əkilməsinə üstünlük veriblər. Bir məsələni də qeyd edək ki, yeni meyvə bağları salınması üçün 2012-2014-cü illərdə 7 nəfərə, ümumilikdə, 98 min manat kredit verilib. Həyata keçirilən tədbirlər bəhrəsiz qalmayıb. Belə ki, ötən il meyvə bağlarından 1583 ton məhsul tədarük olunub.

Yeri gəlmişkən onu da qeyd edək ki, ordubadlıların başlıca məşğuliyyət sahələrindən biri də limon yetişdirilməsidir. Dünyanın heç bir yerində yetişdirilən limon Ordubad limonu ilə müqayisə edilə bilməz. Həm də müalicəvi əhəmiyyətə malik limon Ordubadda dibçəklərdə və istixanalarda yetişdirilir. Rayon sakinləri yüksək məhsuldarlığa nail ola bilirlər. Nəticədə, limonçuluq ən gəlirli sahələrdən birinə çevrilib. Burada hasilə gətirilən limon məhsulunun şöhrəti bütün ölkəmizə yayılıb. Dövlət proqramı bu sahənin də inkişaf etdirilməsində mühüm rol oynayıb. Limonçuluqla məşğul olan 8 nəfər istixana qurmaq üçün dövlətdən 143 min manat kredit götürüb. Ordubad şəhərində, Aza, Vənənd, Aşağı Əndəmic kəndlərində və digər yaşayış məntəqələrində bu sahə ilə məşğul olanların sayı ötən illərdə daha da artıb. Təbii ki, bu, məhsul istehsalının artımında da özünü göstərib. Bir məsələni də vurğulayaq ki, istehsal olunan məhsul Bakı şəhərində də özünə xeyli alıcı toplayıb.

Qarşıdan yaz fəsli gəlir. Rayonun torpaq mülkiyyətçiləri, idarə, müəssisə və təşkilatlar yaz iməciliklərində yeni meyvə bağları salmaq üçün hazırlıq işlərini sürətləndirməkdədirlər.

Ordubad rayonu həm də tərəvəzçiliyin inkişafı üçün münbit torpağı və iqlim şəraiti olan bölgələrdən biridir. Rayonda bu sahədə güclü təsərrüfatçılıq ənənələri formalaşdırılıb, zəngin təcrübə qazanılıb. Ordubadın iqlim şəraiti burada bəzi tərəvəz məhsullarının ildə 2 dəfə əkilib-becərilməsinə imkan verir. Torpaq mülkiyyətçiləri bu imkandan da səmərəli istifadə edirlər.

Bölgənin, əsasən, aran yaşayış məntəqələrində hər il tonlarla tərəvəz məhsulu istehsal olunur. Son illərdə rayonda istixanaların sayı bir neçə dəfə artıb. Dəstə, Sabirkənd, Aza və Azadkənd, Baş Dizə, Kotam və digər yaşayış məntəqələrində ildən-ilə tərəvəz əkini sahələri genişləndirilir. Ötən il rayonda 672 hektar sahədə tərəvəz bitkiləri əkilib. Hektarın orta məhsuldarlığı 67 sentnerə çatdırılıb. Sahələrdən 4503 ton məhsul tədarük edilib. Bu da əvvəlki ildən 40,8 ton çoxdur.

*Ümumilikdə isə 2012-ci ildən üzü bəri hər il tərəvəzçilikdə həm sahələrin genişləndirilməsi, həm də məhsuldarlığın yüksəldilməsi baxımından xeyli artım müşahidə edilib. Cari ildə də belə olacağı istisna deyil. Çünki tərəvəz məhsulları bir tərəfdən mətbəximiz üçün qiymətli qida məhsullarıdırsa, digər tərəfdən iqtisadi cəhətdən xeyli gəlir gətirən məhsullardır. Üstəgəl ki, dövlətimiz tərəfindən tərəvəzçiliklə məşğul olanlara müxtəlif yardımlar və kreditlər verilməsi bu sahəyə marağı daha da artırmaqla adıçəkilən dövlət proqramının uğurlu icrasında başlıca amil olub.*

**Muxtar MƏMMƏDOV**

## Bank sektorunun inkişafı davamlı xarakter alıb

### *İnvestisiyalar artıq uzunmüddətli layihələrə yönəldilir*

*2014-cü ildə bank sektorundakı dəyişikliklər, ümumilikdə, iqtisadiyyatın inkişaf tendensiyasına uyğun şəkildə davam etmişdir. Ötən il xüsusilə bank sektorunun maliyyə göstəricilərinin yaxşılaşması, bankların pul yaratmaq qabiliyyətinin artması, onların iqtisadi inkişafda iştirakının yüksəlməsi dövrü kimi xarakterik olmuşdur.*

Qeyd olunan dövr ərzində muxtar respublikada fəaliyyət göstərən bank filiallarının sayı da artmışdır. Belə ki, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında yeni filialları açılmış, daha sürətli, keyfiyyətli və əlverişli xidmətlər hesabına müştəri seqmentinin daha da artırılmasına nail olunmuşdur.

Bankların vasitəçilik funksiyalarının səviyyəsini xarakterizə edən göstəricilərdə də yaxşılaşma müşahidə olunmuş, həm depozitlərin, həm də kreditlərin həcmi sürətlə artmışdır. Bank sektoru göstəriciləri içərisində iqtisadiyyata kredit qoyuluşları öz artım tempinə görə xüsusilə fərqlənir. Belə ki, 2014-cü il ərzində muxtar respublikada fəaliyyət göstərən bank sektoru tərəfindən iqtisadiyyata qoyulmuş kreditlərin həcmi ilk dəfə olaraq 100 milyon manatı ötmüş və 100 milyon 667 min manat olmuşdur. Artımla yanaşı, kredit qoyuluşlarının zamana görə strukturu da dəyişmiş və uzunmüddətli kreditlərin cəmi kreditlərdəki çəkisi 84,6 faiz təşkil etmişdir. Yaranmış iqtisadi stabilliyin nəticəsidir ki, investisiyalar artıq uzunmüddətli və daha böyük olan layihələrə yönəldilməkdədir.

Bu artım il ərzində verilmiş kreditlərin həcmində də müşahidə olunmuşdur. Belə ki, əvvəlki illə müqayisədə 2014-cü il ərzində banklar tərəfindən iqtisadiyyatın müxtəlif fəaliyyət növləri üzrə verilmiş kreditlərin həcmi 4 milyon 692 min manat artaraq 54 milyon 457 min manat təşkil etmişdir. Artım ən çox tikinti sektoruna yönləndirilmiş kreditlərdə müşahidə edilmiş və əvvəlki illə müqayisədə 3 milyon 80 min manat artaraq 7 milyon 180 min manat olmuşdur. Bu göstərici muxtar respublikamızda son illərdə dinamik artım tempinə malik tikinti sahəsinin inkişafında bank sektorunun mühüm paya malik olduğunu göstərməkdədir. Tikinti sahəsi ilə yanaşı, ipoteka kreditlərinin həcmində də ötən illə müqayisədə 1 milyon 70 min manat artım müşahidə olunmuş və 3 milyon 731 min manat təşkil etmişdir.

2014-cü ildə kənd təsərrüfatının kreditləşdirilməsində də yüksək artım müşahidə olunmuşdur. Belə ki, bu istiqamətdə verilmiş kreditlər ötən illə müqayisədə 3 milyon 172 min manat artaraq 17 milyon 956 min manata çatmışdır. Kənd təsərrüfatı kreditlərinin canlanmasında əhəmiyyətli rol oynayan amillərdən biri də məhz “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən ölkə üzrə bu istiqamətdə ən aşağı faiz dərəcələrinin tətbiq olunmasıdır. İstehlak kreditlərinin verilməsi zamanı da ənənə pozulmamış və əvvəlki illə müqayisədə 2 milyon 105 min manat artım olmaqla, 16 milyon 867 min manat təşkil etmişdir.

Bankların vasitəçilik funksiyalarının səviyyəsini xarakterizə edən digər göstəricilərdən biri də məhz depozitlərdir ki, bu istiqamətdə bu günə qədər ən yüksək göstərici müşahidə edilmişdir. 1 yanvar 2015-ci il tarixə banklar tərəfindən cəlb edilmiş depozitlərin həcmi 6 milyon 772 min manata çatmışdır. Depozit qoyuluşlarının valyuta strukturunda milli valyutada olan depozitlərin çəkisi 74,3 faiz olmaqla, 5 milyon 32 min manat, xarici valyutada olan depozitlər isə 25,7 faiz olmaqla, 1 milyon 740 min manat təşkil etmişdir. Milli valyutada depozitlərin həcminin əvvəlki illərlə müqayisədə artması isə iqtisadi subyektlərin uzunmüddətli sərvətsaxlama vasitəsi kimi milli valyutaya etibar etmələrindən irəli gəlir. Milli valyutada olan depozitlərin artımına səbəb olan əsas amillərdən biri də məhz 2014-cü il ərzində milli valyuta vahidi olan manatın güclənməsi və xarici valyuta qarşısında dayanıqlı olmasıdır.

***Elçin ƏLİYEV***
***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi***

*Muxtar respublikamızda kənd təsərrüfatının inkişafı istiqamətində görülmüş işlər əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına imkan verib.*

## Ərzaq məhsulları istehsalı artırılıb

Təkcə ötən 2014-cü ilin yekunlarına baxsaq, bu vacib sahədə əldə olunmuş nəticələrin regionda ərzaq təhlükəsizliyinə nail olunması üçün nə qədər əhəmiyyətli olduğunu görmək olar. Belə ki, ötən il muxtar respublikamızda 355 milyon 157 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da 2013-cü ildəki müvafiq göstəricidən 6,1 faiz çoxdur. Aqrar sahədə əkinçiliyə xüsusi diqqət yetirilməsi nəticəsində 2014-cü ilin məhsulu üçün muxtar respublikada 60 min 829 hektar sahədə əkin aparılıb. Bu isə 2013-cü ilin məhsulu üçün əkilmiş sahədən 702 hektar çoxdur. 2014-cü ilin məhsulu üçün əkin aparılmış 35749,7 hektar taxıl zəmisindən 103 min 70 ton məhsul toplanılıb. Bu dövrdə əkinçilikdə digər vacib sahə olan kartofçuluqda da artım olub, 2962 hektar sahədən 41405,5 ton kartof yığılıb. Bundan əlavə, ötən il muxtar respublikada 66 min 731 ton tərəvəz, 36 min 196 ton meyvə və 14 min 395 ton üzüm istehsal olunub. Əhalinin ilboyu təzə meyvə-tərəvəzlə təmin olunmasında soyuducu anbarların və istixana komplekslərinin gücündən səmərəli istifadə edilib, ümumi tutumu 12 min 250 ton olan 20 soyuducu anbarın və 2014-cü ildə yeni yaradılmış 6 yeni istixana kompleksinin fəaliyyəti bu istiqamətə yönəldilib.

Heyvandarlıq məhsulları istehsalında da ötən il artım dinamikası qorunub saxlanılıb, 2014-cü ildə muxtar respublikada diri çəkidə 19 min 882 ton ət, 78 min 929 ton süd istehsal olunub. Kompleks heyvandarlıq təsərrüfatlarının əhəmiyyətinin artdığı bir dövrdə 2014-cü ildə muxtar respublikada 5 heyvandarlıq təsərrüfatının yaradılması, 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılıb, hazırda 1 heyvandarlıq kompleksinin yaradılması üzrə işlər davam etdirilməkdədir.

Ötən il muxtar respublikanın heyvandarlıq təsərrüfatlarında süni mayalandırma yolu ilə 6555 baş sağlam buzov alınıb, 1 yanvar 2015-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 107 min 632 baş, qoyun və keçilərin sayı isə 646 min 344 baş olub. Bu dövrdə muxtar respublikada 4 quşçuluq təsərrüfatının yaradılması, 1 quşçuluq təsərrüfatının genişləndirilməsi başa çatdırılıb, 1 quşçuluq təsərrüfatının yaradılması istiqamətində iş aparılıb, 1 balıqçılıq təsərrüfatının fəaliyyətinin genişləndirilməsi başa çatdırılıb, 1 arıçılıq təsərrüfatının yaradılması davam etdirilib. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın qəbul olunduğu 2008-ci illə müqayisədə bitkiçilik məhsullarının həcmi 2,4 dəfə artaraq 229 milyon 646 min manata, heyvandarlıq məhsullarının həcmi isə 2,1 dəfə artaraq 125 milyon 511 min manata çatıb.

**Əli CABBAROV**




# Bir neçə saat Əlillərin Bərpa Mərkəzində

***Naxçıvan şəhərindəki Cəlil Məmmədquluzadə küçəsində yerləşən Əlillərin Bərpa Mərkəzi 11 ildir, fəaliyyət göstərir. "Məhdud fiziki imkanlı insanların ümid ocağı olan bu müəssisədə fəaliyyət necə qurulub?" sualına cavab almaq üçün həmin ünvana üz tutduq.***

20 il bundan əvvəl muxtar respublikada bu kateqoriyadan olan insanların hansı əziyyətlərə qatlaşdığını xatırlayırsınızmı? Bu qəbildən olan insanlar bilmirdilər, öz sağlamlıqlarının qeydinə qalsınlar, yoxsa, onsuz da məhdud fiziki imkanları ilə uzun yollarda əziyyət çəksinlər. Maddi çətinliklər də bir tərəfdən. İndi isə o çətin günlər arxada qalıb. Bu sahədə bir sıra tədbirlər həyata keçirilib. Müvafiq kateqoriyadan olan şəxslər üçün fərdi evlərin və ümumi yaşayış binalarının tikilib istifadəyə verilməsi, onların minik avtomobilləri və müxtəlif texniki-bərpa vasitələri, protez-ortopediya məmulatları ilə təmin edilmələri, tənha yaşayan, köməyə ehtiyacı olan şəxslərə evdə sosial-məişət xidmətinin göstərilməsi daim diqqət mərkəzində saxlanılır. Həmçinin bu kateqoriyadan olan şəxslərin ictimai həyatın bütün sahələrində iştirakının təmin olunması, onların fərdi qabiliyyətlərinə və maraqlarına müvafiq fəaliyyət göstərmələri üçün zəruri şəraitin yaradılması, sağlam həyat tərzində yaşamaları, maddi və mənəvi tələbatlarının ödənilməsi və rifahlarının yüksəldilməsi sahəsində ardıcıl tədbirlər görülür. 2004-cü ilin may ayında istifadəyə verilən Əlillərin Bərpa Mərkəzinin binası isə həyata keçirilən tədbirlərin ilki olub. Sağlamlıq ocağına qədəm qoyduğun zaman ilk görülən buranın səliqə-sahmanı, məhdud imkanlı fiziki şəxslər üçün yaradılan yüksək şərait insanı valeh edir. Mərkəzdə muxtar respublikada belə insanlara göstərilən diqqət və qayğının bariz nümunəsini görmək olar. Burada tibbin ən son avadanlıqları ilə təchiz olunmuş müxtəlif müalicə və müayinə kabinələri var. Məsələn, ultrasəslə müayinə cihazı orqanizmdə bütün patoloji cəhətləri göstərməklə müayinədə heç bir səhvə yol vermir. İnfraqırmızı, ultrabənövşəyi şüa ilə, qısa dalğalı elektriklə, müxtəlif tezlikli elektrik aparatları, həmçinin neçə-neçə masaj qurğuları və parafinlə müalicə dəqiqliklə aparılır. Burada orqanizmin daxilindəki pozğunluqlar, oynaqlardakı ağrıverici amillər, duzlaşmalar, nahiyələrdəki zədələnmələr, bədəndəki süstlük əlamətləri, ağrıların ümumi əhval-ruhiyyəyə təsiri bu cihazlar vasitəsilə aşkara çıxarılaraq müalicə edilir. Bütün bunlar haqqında mərkəzin baş həkimi Mətanət Səfərova ilə söhbətimiz zamanı məlumat aldım.

Bərpa mərkəzində masaj, duş, dövrəvi və çiləmə duşlar, süni qaçış zolağı, velosiped və ikinəfərlik, eyni anda 22 növ hərəkətləri yerinə yetirən idman qurğuları, trenajor zalı da vardır ki, əsəblərin sakitləşdirilməsi, əzələlərin hərəkətə gətirilməsi, oynaq ağrılarının müalicəsi, habelə iflic əl-qol və ayaqların fəallaşdırılması üçün bu qurğular xüsusi əhəmiyyətə malikdir.



Kabinələrin təmizliyi, səliqəsi də göz oxşayır. Onu da deyim ki, xəstələrin hərəkət məhdudluğu nəzərə alınaraq palataların hər birində ayrıca kommunal şərait yaradılıb.

Müəssisə ilə ümumi tanışlıqdan sonra burada müalicə və müayinə olunan insanlarla da həmsöhbət oldum. Elektriklə müalicə otağından çıxan Rəfael Əliyev ilə söhbət edirəm. O, Şərur rayonunun Maxta kəndindəndir. Hər il mərkəzin müxtəlif müalicə üsullarından istifadə edir. Uzun illərdir ki, ayaqlarından əziyyət çəkən Rəfael Əliyev müalicələrdən sonra xeyli irəliləyişlər olduğunu deyir.

Dəhlizdə diqqətimi çəkən otaqlardan biri erqoterapiya otağıdır. İstirahət saatlarında xəstələr burada müxtəlif əl işləri ilə məşğul ola bilirlər. Pərvin Allahverdiyevanın əl işləri diqqətimizi çəkir. Pərvinin palatasına keçib onunla söhbət edirəm. Öyrənirəm ki, Pərvin həm də Naxçıvan radiosunda "Əngəlsiz həyat" adlı verilişin aparıcısıdır. 1988-ci il təvəllüdlü bu gənc nikbin əhval-ruhiyyəsi, intellektual səviyyəsi ilə seçilir. O, özünü çox şeylərə qadir hesab edir və buna, həqiqətən, haqqı olduğunu düşünürəm. Çünki onun fəaliyyətinə, əl işlərinə heyran olmaya bilmirsən. İnsanın qurub-yaratması üçün yalnız fiziki sağlamlıq azdır. Bunun üçün ürək lazımdır, istək lazımdır, qabiliyyət lazımdır. İnsanın insan kimi formalaşması, özünü sübut etməsi üçün bunlar gərəklidir. Bütün bunlar isə Pərvində var. Onun dediklərindən:

– Əlillərin Bərpa Mərkəzi mənim ikinci evimdir. Burada yaradılan şərait yüksək səviyyədədir. Tibb heyəti bizə öz doğmaları kimi yanaşır. Sağlamlıq imkanım məhdud olsa da, heç zaman bunu hiss etmirəm. Çünki bu gün muxtar respublikada bizim kimi insanların cəmiyyətə inteqrasiyası üçün hər cür şərait yaradılıb. Əl işlərimlə sərgilərdə iştirak edirəm. Diplomlara və hədiyyələrə layiq görülürəm.

Pərvinlə bir palatada olan 1993-cü il təvəllüdlü Nərmin Həsənova da söhbətimizə qoşulur:

– Üç gündür, mərkəzdəyəm. Düzü, bura gəlməyə çəkinirdim. Amma indi burada olan şəraiti və münasibəti gördükdən sonra inanın, getməyim gəlmir. Uşaqlıqdan aldığım bir xəsarətlə III qrup əlil olmuşam. Mütəmadi olaraq müalicəyə ehtiyacım var. Mərkəzdə müalicəm üçün, demək olar ki, hər bir şərait var. Mən bundan kifayət qədər yararlanıram.

Elektriklə müalicə otağına baş çəkirik. Burada tibb bacısı Ramilə Həsənova ayaqlarından əziyyət çəkən ahıl vətəndaş Mirzə dayıya tibbi xidmət göstərir. 1938-ci il təvəllüdlü, Babək rayonunun Qahab kəndindən olan Bəhlul Fərzəliyev isə tibb bacısı Elza Cəfərova tərəfindən masaj olunur. Müalicə seansları bitdikdən sonra onlarla söhbətləşirəm. Hər iki ahıl vətəndaşmız burada yaradılan şəraitə görə dövlətimizə minnətdar olduqlarını bildirir.

İstirahət otağında 80 yaşlı Baba Hacıyevlə həmsöhbət oluram. O deyir:

– Ordubad rayonundan gəlmişəm. Ahıl vətəndaş kimi mərkəzə ildə bir-iki dəfə gəlirəm. Artıq müalicəm başa çatıb. Özümü gümrah hiss edirəm. Qızım, qəzetinizə "oxucu məktubu" yazacaqdım. Fürsətdən istifadə edib qəzetiniz vasitəsilə minnətdarlığımı bildirmək istəyirəm. Uzun illər xəstəliyimə görə çox əziyyət çəkmişəm. Əvvəllər xaricə gedirdim. Bu, ailəmiz üçün çətin idi. İndi öz doğma yurdumda yüksək səviyyədə müalicə alıram. Bunun üçün buradakı xəstələr adından dövlətimizə minnətdarlığımızı bildirirəm.

***Sağlamlığımızı itirmək öz əlimizdə deyil – kimimiz uşaqlıqdan, kimimiz hər hansı qəza nəticəsində. Əlillərin Bərpa Mərkəzi ən etibarlı ümid yerimizdir.***

**Sara ƏZİMOVA**

## Muxtar respublikada epidemioloji vəziyyət sabitdir

***Yanvar ayında muxtar respublikamızda epidemioloji vəziyyət sabit olmuş, zəhərlənmələr baş verməmiş, infeksiya ocaqlarında profilaktik və epidemiya əleyhinə tədbirlər həyata keçirilmişdir.***

Yenidoğulmuş uşaqların 96,5 faizi idarəolunan yoluxucu xəstəliklərə görə peyvənd almışdır. Mövsümi xəstəliklərin və zəhərlənmələrin qarşısını almaq məqsədilə qidalanma sənayesi, kommunal, ictimai iaşə, ticarət, su təchizatı, müalicə-profilaktika müəssisələrinin rəhbərlərinə müvafiq göstərişlər verilmiş, su təchizatı sistemlərində, ictimai, inzibati və fərdi binalarda, tullantı və çirkab suları axıdılan yerlərdə, məişət tullantıları qoyulan meydançalarda 14616 kvadratmetr dezinfeksiya, 92 obyektdə isə 1510 kvadratmetr dezinseksiya tədbirləri həyata keçirilmişdir.

İstehsal olunmuş məhsulların sertifikatlaşdırılması işi Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə aparılmış, 33 məhsul sertifikatlaşdırılmışdır.

Ay ərzində bakterioloji laboratoriya fəaliyyətini davam etdirmiş, 21 su, 162 yuyuntu nümunələrinin, 354 digər nümunələrin müayinələri aparılmışdır.

Obliqat qrupların bakterioloji müayinələri diqqət mərkəzində saxlanılmış, səhiyyə üzrə 121, təhsil üzrə 144, qidalanma sənayesi, ictimai iaşə və ticarət üzrə 93, kommunal sahələr üzrə 41, sürücülük üzrə 186 nəfər olmaqla, bütövlükdə, 648 nəfər müayinədən keçmişdir.

Radioloji qrup tərəfindən 11 yerdə gündəlik olaraq radioloji ölçmələr aparılmış, təbii fon şüalanması yol verilən hədd daxilində olmuşdur. Qidalanma gigiyenası laboratoriyasında 72 nümunədə 288 müayinə aparılmış, o cümlədən yerli istehsal olan xörək duzu nümunələrində yodun, həmçinin 3 un nümunəsində bəsit elektrolit dəmir preparatlarının tələbata uyğunluğu müəyyən edilmişdir.

Kommunal gigiyena laboratoriyasında 42 nümunədə 336, Toksikoloji, xarici mühitdə və ərzaq məhsullarında zəhərli kimyəvi maddələrin qalıq miqdarının təyini laboratoriyasında 65 nümunədə 240 müayinə aparılmışdır. Əhalinin sanitariya sahəsində maarifləndirilməsi ardıcıl şəkildə aparılmış, 35 mühazirə oxunmuş, 2 seminar keçirilmiş, tibbi şurada 6 məsələ müzakirə edilmişdir.

"İstehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər"lə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində 8 iyun 2011-ci ildə keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı tikinti və inşaat obyektlərində nəzarət yoxlamaları aparılmışdır.

Əhalinin sanitariya-epidemioloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə muxtar respublikanın sanitariya-epidemioloji xidmət orqanları tərəfindən obyektlər sanitar-gigiyenik vəziyyətə görə yoxlanılmış, aşkar olunmuş nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*İdman xəbərləri*

## Daxili İşlər Nazirliyinin idmançıları 8 medal qazanıblar

***Ötən həftə Bakı şəhərində keçirilən Daxili İşlər Nazirliyinin (DİN) güc çoxnövçülüyü üzrə Azərbaycan birinciliyinə yekun vurulub.***

Ölkənin DİN "İdman" cəmiyyətləri idmançılarının mübarizə apardığı birincilikdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idmançıları da iştirak ediblər. Yeddi idmançı ilə paytaxta yollanan qanun keşikçisi idmançılar 8 medal qazanıblar. Daxili İşlər Nazirliyinin "İdman" Cəmiyyətinin rəisi, polis polkovniki Cavanşir Salayevin verdiyi məlumata görə, ən uğurlu nəticəni +90 kiloqram çəki dərəcəsində Emil Əsədov qazanıb. O, ağırlıqqaldırmada bütün rəqiblərini geridə qoyub və qalib adına layiq görülüb. Bu növdə Rəşad Həsənov (65 kq), Elvin Eyvazov (70 kq), Orxan Babayev (75 kq), İlkin Məmmədov (80 kq) ikinci, Cavanşir Yaqubov (85 kq) isə üçüncü olub. +90 kiloqram çəki dərəcəsində Əli Quliyev armrestlinq (qol gücü) yarışında üçüncülüklə kifayətlənib.

70 kiloqram çəki dərəcəsində gümüş medal qazanan Elvin Eyvazov həm də qol gücü yarışında bürünc medal mükafatçısı olub.

Sonda mükafatçılara diplom və medallar təqdim edilib.

Həmçinin Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin "İdman" Cəmiyyətinə idmançıların uğurlu çıxışına görə xüsusi diplom verilib.

## Boksçularımız ölkə birinciliyindən medallarla qayıdıblar

Ötən həftə Bakı şəhərində keçirilən boks üzrə yeniyetmələr arasında Azərbaycan çempionatına yekun vurulub. Cari ilə uğurla başlayan Naxçıvan boksçuları bu yarışda da mükafatçılar sırasındadırlar. Belə ki, ölkə paytaxtına 2 dəri əlcək sahibi ilə yollanan komandamızın heyətində hər iki idmançımız medal qazanmağa müvəffəq olub. 57 kiloqram çəki dərəcəsində Nihad Quliyev yarımfinal mərhələsinə kimi 2 rəqibini rinqdə məğlub etməyi bacarıb. O, həlledici görüşə vəsiqə qazanmaq üçün çıxdığı döyüşdə "Rabitə" İdman Klubunun təmsilçisinə məğlub olub və bürünc medalla kifayətlənib. 80 kiloqram çəki dərəcəsində mübarizə aparan Toğrul İsmayıllının da qazandığı medalın əyarı bürünc olub.

Mükafat qazanan idmançılarımıza diplom və medallar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 114